Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 185 (8208) BAZAR, 25 avqust 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





## Sənaye məhəllələri yerli sahibkarlara geniş imkan yaradır

**Sənayeni inkişaf etdirmək məqsədilə ölkədə yüzlərlə kiçik, orta və iri müəssisə yaradılıb. Bununla yanaşı, nəhəng sənaye istehsalı sahələri olan texnoparklar da fəaliyyət göstərir. Texnoparklar həm ərazisinə, həm də burada yerləşən müəssisələrin sayına və istehsal etdiyi məhsulların növünə görə sənaye nəhəngidir. Digər sənaye birlikləri - sənaye məhəllələri texnoparklardan fərqli olaraq kiçik və yığcamdır. Burada əsasən yerli xammaldan istifadəyə üstünlük verilir. Lakin texnoparklardakı kimi, sənaye məhəllələrində də yüksək texnologiyalardan istifadə edilərək keyfiyyətli məhsul istehsal olunur.**

Həmin məhəllələrin bir üstün cəhəti də bölgələrdə yerləşməsidir. Bu, yerli sahibkarlara az məbləğdə investisiya qoymaqla dövlətin verdiyi güzəştlərdən istifadə etmək imkanı yaradır. Çünki ölkənin iri şəhərlərində fəaliyyət göstərən sahibkarlarla yanaşı, bölgələrdə çalışan sahibkarlar da dövlətin yaratdığı bu imkanlardan istifadə etmək istəyirlər. Rayonlarda yaradılan sənaye məhəllələri onlara belə imkan verir.

Beləliklə, regionlarda yaradılan 9 sənaye parkı və məhəllələrində 78 rezident qeydiyyatdan keçib, 45 rezident artıq fəaliyyətə başlayıb. Nəzərdə tutulan 6,4 milyard manat sərmayədən artıq 5,7 milyard manatı faktiki olaraq qoyulub. Həmin layihələrin yerinə yetirilməsi nəticəsində 11 mindən çox yeni iş yeri açılıb. Eyni zamanda, bu layihələrin fəaliyyətə başlaması sayəsində həmin müəssisələrdə 1,5 milyard manatlıq məhsul istehsal olunub ki, onun da 300 milyon manatlığı xarici bazara göndərilib. Onu da vurğulayaq ki, sənaye məhəllələrinə kapital qoyuluşunda xarici sahibkarlarla yanaşı, yerli sahibkarlar da fəallıq göstərirlər.

İnvestisiya təşviqi sayəsində görülən işlər də regionların inkişafına müsbət təsir göstərir və investisiyaların təşviqi mexanizmi uğurlu nəticələr verir. Bugünədək 400-ə yaxın layihə təşviq olunub və bunun sayəsində ölkə iqtisadiyyatına 3,4 milyard manat sərmayə qoyulub. Nəticədə 16 mindən çox yeni iş yerinin açılması mümkün olub.

Aparılan islahatlar sayəsində ölkənin qeyri-neft sektorunun inkişafı istiqamətində çox mühüm layihələr icra olunub və bu proses davamlı xarakter alıb. Xüsusilə sənayenin inkişafına böyük diqqət göstərilir. Bu da təsadüfi deyil. Çünki sənaye iqtisadiyyatın aparıcı sahələrindəndir. Uğurla həyata keçirilən sənayeləşmə siyasətinə uyğun olaraq ölkədə yüzlərlə müasir sənaye müəssisəsi yaradılıb. Nəticədə daxili tələbatın ödənilməsində yerli məhsulların payı əhəmiyyətli dərəcədə artıb, ixracın həcmi genişlənib.

Bu məqsədlə yüksək texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənayenin davamlı inkişafını təmin etmək və əhalinin məşğulluğunu artırmaq məqsədilə nəhəng sənaye parkları və sənaye məhəllələri yaradılıb. Regionlarda sahibkarlıq fəaliyyətinin genişləndirilməsi, yerli ehtiyatlardan səmərəli istifadə etməklə sənaye sahələrinin inkişafı, istehsal prosesinin təşkilində infrastruktur xərclərinin azaldılması baxımından bu cür sənaye məhəllələrinin müstəsna əhəmiyyəti var.

Sənaye məhəllələrinin istehsal sahələri həcmcə kiçik olsa da, istehsal etdiyi məhsul növünə görə çoxşaxəlidir. Sənaye məhəllələrinin bir üstünlüyü də odur ki, ölkənin bütün şəhər və rayonlarında belə müəssisələr yaratmaq mümkündür və yaradılır da. Çünki bir çox müəssisələrin xammalı həmin bölgələrdə yerləşir. Kiçik sahələri əhatə etdiyi üçün onun quraşdırılmasının xərci də azdır. Belə müəssisələr onlara kiçik və orta sahibkarların sərmayə qoymaq imkanına malik olduqları üçün də sərfəlidir. Bu istiqamətdə həyata keçirilən siyasətin əsas məqsədi hər bir rayonda sənaye məhəllələrinin yaradılmasıdır.

Neftçala Sənaye Məhəlləsi bu sahədə birincidir. Burada hətta "Xəzər" avtomobilləri istehsal olunur. Artıq həmin avtomobillər satışa buraxılıb. Gələcəkdə müəssisədə ildə 10 min avtomobilin istehsalı nəzərdə tutulub.

Bundan başqa, burada "Kəhf" MMC fəaliyyət göstərir. Müəssisənin illik istehsal gücü 25 ton balıq yemi istehsal etməkdir. Gələcəkdə müəssisədə mal-qara, eləcə də digər yemlərin istehsalı nəzərdə tutulur. Müəssisənin yaradılması üçün 12 milyon manat investisiya qoyulub. Qeyd edək ki, Sahibkarlığa Kömək Milli Fondu da müəssisəyə 5,9 milyon manat güzəştli kredit verib.

Neftçala Sənaye Məhəlləsində daha bir müəssisə fəaliyyət göstərir. İllik istehsal gücü 2 milyon tara olan "Metak" MMC-yə 1,35 milyon manat investisiya yatırılıb.

Ardı 4-cü səh.

## Yusif bin Əhməd ƏL-OSAYMİ:

## "Azərbaycan dünyada bütün dinlərin və məzhəblərin sülh şəraitində birgə yaşadığı nümunəvi ölkədir"



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 24-də İslam Əməkdaşlıq Təşkilatının Baş katibi Yusif bin Əhməd Əl-Osaymini qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı Yusif bin Əhməd Əl-Osayminin İslam Əməkdaşlıq Təşkilatının Baş katibi kimi fəaliyyətini yüksək qiymətləndirdi və Azərbaycanla əməkdaşlığa verdiyi önəmə görə ona təşəkkürünü bildirdi.

İslam Əməkdaşlıq Təşkilatının Baş katibi Yusif bin Əhməd Əl-Osaymin Azərbaycana səfərindən məmnunluğunu ifadə etdi. Azərbaycanın İslam Əməkdaşlıq Təşkilatının çox mühüm üzvü olduğunu vurğulayan qonaq ölkəmizin dünyada sülhün və təhlükəsizliyin, o cümlədən müsəlman aləmində islam həmrəyliyinin möhkəmləndirilməsi işinə verdiyi töhfəsinin əhəmiyyətini qeyd etdi. Görüşdə ölkəmizin dinlər və mədəniyyətlərarası dialoqun genişləndirilməsində mühüm rol oynadığı qeyd edildi, Azərbaycanın dünyada bütün dinlərin və məzhəblərin sülh şəraitində birgə yaşadığı nümunəvi ölkə olduğu bildirildi, Bakıda keçirilən İslam Həmrəyliyi Oyunlarının önəmi vurğulandı.

Söhbət zamanı Azərbaycanla İslam Əməkdaşlıq Təşkilatı arasında əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

## 7 ayın makroiqtisadi nəticələri nədən xəbər verir

### Sənayenin qeyri-neft-qaz sektorunda 15,8, əhalinin orta aylıq əməkhaqqında 8,2 faiz artım var

Dövlət Statistika Komitəsi (DSK) cari ilin yanvar-iyul ayları üzrə ölkənin sosial-iqtisadi inkişafını əks etdirən makroiqtisadi göstəriciləri açıqlayıb. Bildirilir ki, bu dövrdə ölkə üzrə 44,5 milyard manatlıq ümumi daxili məhsul (ÜDM) istehsal olunmuşdur ki, bu da ötən ilin eyni dövründəkindən 2,5 faiz çoxdur. Bu dövrdə əlavə dəyər istehsalı iqtisadiyyatın qeyri-neft sektorunda 3, neft-qaz sektorunda 1,9 faiz artmışdır.

ÜDM-in 44,2 faizi sənaye, 10,3 faizi ticarət və nəqliyyat vasitələrinin təmiri, 6,4 faizi nəqliyyat və anbar təsərrüfatı, 5,9 faizi tikinti, 5,8 faizi kənd və meşə təsərrüfatları, eləcə də balıqçılıq, 2,5 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,8 faizi informasiya və rabitə, 14,3 faizi digər sahələrdə istehsal edilmişdir. Məhsula və idxala xalis vergilər ÜDM-in 8,8 faizini təşkil etmiş, əhalinin hər nəfərinə 4499,5 manat əlavə dəyər düşmüşdür.

Ardı 4-cü səh.

## Ətraf mühitə təsir məsuliyyətlə idarə edilir

### Hasilat zamanı bu, əsas şərtlərdən biri sayılır

Azərbaycanda həyata keçirilən neft, qaz və ixrac layihələrində vacib şərtlərdən biri də ətraf mühitə mənfi təsirin minimum səviyyədə olmasıdır. Təsadüfi deyil ki, "Əsrin müqaviləsi" imzalandıqdan cəmi bir il sonra bütün müqavilə ərazilərində və əməliyyatların aparıldığı obyektlərin yaxınlığında ətraf mühit monitorinqlərinə start verilib. Hazırda gedən işlərin dənizə, sahildəki və qurudakı digər sahələrə potensial təsirlərini müəyyənləşdirmək üçün monitorinqlər davam etdirilir.



Keçən il Xəzərdə "Çıraq", "Mərkəzi Azəri", "Şərqi Azəri" və "Qərbi Çıraq" platformalarının çevrəsində ətraf mühit üzrə monitorinqlər keçirilib. Eləcə də yeni "Şahdəniz Bravo" platforması quraşdırıldıqdan sonra burada tədqiqat aparılıb. Bundan başqa, sahilə yaxın sularda dörd monitorinq aparılıb ki, onlardan üçü Abşeron yarımadası ətrafındakı dayazsulu sahəni, biri isə "Şahdəniz-2" layihəsi ilə bağlı Səngəçalda xəndəklərin qazıldığı ərazini əhatə edib.

Ölkəmizdə gerçəkləşən ən iri neft-qaz və ixrac layihələrinin operatoru olan BP-nin çoxsaylı əməliyyatlarında ətraf mühitlə bağlı bir sıra digər tədbirlər də həyata keçirilir. Keçənilki 17 monitorinq tədqiqatının 12-si quru ərazilərə - Səngəçal terminalına, Qərb İxrac Boru Kəmərinə və Sərincədəki təhlükəli tullantıların idarə edilməsi obyektlərinə aid olub. 2018-ci ildə eləcə də Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan kəmərinin dəhlizi boyunca bioloji bərpa üzrə tədqiqat işləri başa çatdırılıb.

Neft-qaz layihələrinin ətraf mühitə təsirinin azaldılmasında tullantıların idarə olunması da mühüm rol oynayır. Layihə qruplarının əməliyyatlarda tullantıların əmələ gəlməsini aradan qaldırmaq, onları minimuma endirmək və təkrar istifadə etmək üçün xüsusi yanaşmaları var. Nəticədə keçən il təhlükəsiz tullantıların 66 faizi yenidən istifadə olundu. Bunlar əsasən metallar, plastik məhsullar, kağız və karton idi. Təhlükəli tullantıların isə 45 faizi təkrar istifadəyə və emala göndərildi. Bunların əsas hissəsini neft qarışmış su, sement və yağlar təşkil edirdi.

Xəzərdə qazma işləri davam etdiyindən şlamların yaranması da təbiidir. Qeyd edək ki, şlam qazma zamanı quyuların dib və divarlarında süxurların pozulması nəticəsində yaranmış hissəciklərin su ilə qarışdırılmış kütləsidir. Keçən il 50 min ton belə kütlə əmələ gəlmişdi ki, bu da ondan əvvəlki ilə nisbətən 50 faiz azdır. Odur ki, şlamların təkrarən laylara vurulması da 30 faiz az miqdarda oldu. "Çıraq" platformasından sintetik tərkibli qazma məhlulu və şlamlar uğurla sahilə daşındı, onların dənizə atılmasının qarşısı alındı.

Çirkab suların təmizlənməsi qurğusunun göstəricilərinin və təmizlənmiş suyun keyfiyyətinin monitorinqlərinin, həmçinin analizinin aparılması da müntəzəm həyata keçirilən tədbirlərdir.

Ardı 4-cü səh.

## Ağstafadakı "Dilbaz Atçılıq Təsərrüfatı" əvvəlki şöhrətini qaytarır

Ölkəmizdə atçılığın tarixi olduqca qədimdir. Dünyada yetişdirilən 260 at cinsindən ikisi - Qarabağ və Dilbaz atları Azərbaycana məxsusdur.



Məşhur Qarabağ atından sonra dünya şöhrəti qazanmış Dilbaz atı XVIII əsrin sonu, XIX əsrin əvvəllərində yerli atların Şərq atları ilə çarpazlaşması əsasında və Qarabağ cinsinin təsiri altında yaranmışdır.

Cinsin adı zaman keçdikcə bir neçə dəfə dəyişmişdir. Əsasən minik atı olan Dilbaz bəzi mənbələrdə "Dəliboz", "Diliboz", hətta "Dilboz" da adlanır. Bu atlar geniş alın, qısa baş, dar burun, ağır boyun, uzun kürək və beli ilə digər at cinslərindən fərqlənir. Ayaqları nisbətən hündürdür. Çox təsadüf edilən rəngi boz və kəhərdir. Dilbaz atı idmanda, minikdə, yükdə və yüngül qoşquda istifadə olunur. Dözümlülüyü və dağlıq şəraitində minik üçün möhkəm olması ilə fərqlənir. Dilbaz atları yaxşı işləmə bacarığına malikdir. Onlar bir gündə 115-130 kiloqram yüklə 45-55 kilometr, idmançı ilə isə 70 kilometr yol qət edə bilirlər.

Tarixi mənbələrdən məlum olur ki, XIX əsrin ortalarında Qazax qəzasında bu atların sayı 25 minə çatırdı. Lakin Birinci və İkinci dünya müharibələri zamanı atların cəbhəyə cəlb edilməsi onların sayının kəskin azalmasına səbəb olmuşdur.

Ardı 4-cü səh.

## N.Paşinyan iqtidarına qarşı etirazlar səngimək bilmir

### Daxili və xarici siyasətdə qeydə alınan uğursuzluqlar hakimiyyət üçün yeni problemlərin yaranmasına səbəb olur

Ermənistanda sosial-iqtisadi, ictimai-siyasi müstəvidə vəziyyətin getdikcə ağırlaşması müşahidə olunur. Belə görünür ki, həm əhalinin maddi rifah halının pisləşməsi, həm də daxili və xarici siyasətdə qeydə alınan uğursuzluqlar qarşıdakı günlər ərzində hakimiyyət üçün yeni problemlərin yaranmasına gətirib çıxaracaq. Bunlarla yanaşı, ölkədə etiraz aksiyaları da səngimir.

Aksiyaların hədəfi müxtəlifdir. Bəziləri əvvəlki kütləvi etirazlar zamanı irəli sürdükləri tələb və problemlərini baş nazirin yadına salır, yeni hökumətin əvvəlkindən heç bir fərqinin olmadığını açıq şəkildə bəyan edirlər.

Bu günlərdə Ermənistanın əsas turizm bölgəsi hesab edilən Cermukda sakinlər ərazidəki dağ-mədən şirkətinin fəaliyyətini dayandırmasını tələb edərək etiraz aksiyaları keçiriblər. Onlar şəhərin əsas giriş hissəsini bağlayıblar. Qeyd edilir ki, Cermukun dağ-mədən sahələrində fəaliyyət göstərən xarici şirkətlər şəhəri iflic vəziyyətə salıblar. Şirkət ərazidə fəaliyyət göstərəndən sonra təbiət məhv olmağa başlayıb. Narazı kütlə, eyni zamanda, Cermuk məsələsinə görə Ermənistan parlamenti qarşısında saxlanılan aksiya iştirakçılarının azadlığa buraxılmasını tələb edib.

Ardı 6-cı səh.

# Sadiq və etibarlı silahdaş

**Yüksək humanizmi, xeyirxahlığı və nəcibliyi, bənzərsiz ictimai fəaliyyəti ilə nəinki ölkəmizdə, eləcə də dünyada yüksək ehtiram sahibi olan Mehriban xanım Əliyeva tariximizin şanlı salnaməsinə öz dəstxəti ilə daxil olan şəxsiyyətlərdəndir. Onun vətənə xidmət fəlsəfəsinin təməlində doğma xalqına sonsuz sevgi, Ulu Öndər Heydər Əliyev ideyalarına sarsılmaz inam və Prezident İlham Əliyevin müstəqil siyasətinə yüksək sədaqət hissləri dayanır.**



İctimai-siyasi mühitə qədəm qoyduğu gündən həyatının mənasını vətənə, xalqa və insanlara xidmətdə görən, sərhəd tanımayan humanistlik, xeyirxahlıq, insanpərvərlik Azərbaycanın birinci xanımı Mehriban Əliyevanı fərqləndirən özünəməxsus xüsusiyyətləridir.

Mehriban xanımın fəaliyyəti Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi xətti uğurla tamamlayır və həmçinin ölkənin birinci xanımı fədakarlığı, mədəniyyətimizə, tariximizə, adət-ənənələrimizə bağlılığı ilə ən böyük mükafat olan ümumxalq sevgisinə layiq olduğunu təsdiq edir.

Xeyirxah əməlləri ilə xalqının sevimlisinə çevrilən Heydər Əliyev Fondunun rəhbəri Azərbaycan qadınına xas olan ən gözəl xüsusiyyətləri özündə cəmləşdirən nəciblik missiyasını şərəflə yerinə yetirir. UNESKO və ISESCO-nun xoşməramlı səfirinin ölkəmizin ictimai-siyasi və mədəni həyatındakı rolu mühüm, xidmətləri danılmazdır. Dünyada ikinci belə şəxsiyyət yoxdur ki, yuxarıda adları çəkilən iki mötəbər təşkilatın eyni zamanda səfiri olsun. Bu, Mehriban xanımın dinlərarası, sivilizasiyalararası dialoqa verdiyi töhfə ilə bağlıdır. Bu töhfə ölkəmizin siyasətinin təzahürüdür. Çünki bu gün Azərbaycan dünya miqyasında sivilizasiyalararası dialoqa ən çox töhfə verən ölkələrdən biri kimi tanınır.

Mehriban Əliyeva uzun müddətdir ölkənin ictimai və siyasi həyatında ən aparıcı simalardan biri kimi tanınır. Onun fəaliyyəti təkcə Azərbaycanın hüdudları ilə məhdudlaşmır. Mehriban xanım ölkə xaricində Azərbaycanı ən yaxşı təbliğ edən insanlardan biridir. İctimai və siyasi fəaliyyətinin coğrafiyası kifayət qədər genişdir və ölkəmizə böyük siyasi və mənəvi dividendlər gətirir.

Mehriban xanım Əliyeva deputatlıq fəaliyyəti dövründə də ölkə həyatının elə bir sahəsi olmayıb ki, oradakı problemli məsələlər diqqətindən kənarda qalsın. Həmçinin bir sıra xarici ölkələrdə məktəb, xəstəxana, katolik və pravoslav kilsələri, sinaqoqların tikintisi, bərpasında köməyini əsirgəməyib. Mehriban xanım Şərqlə Qərbin qeyri-rəsmi elçisidir.

Mehriban xanımın rəhbərliyi ilə həyata keçirilən layihələr təhsil, səhiyyə, mədəniyyət və sosial sferaları, ekologiya, idman və sair sahələri əhatə edir. Onun təşəbbüsü ilə qəbul edilmiş amnistiya aktları sayəsində on minlərlə insan azadlığa qovuşub.

Bütün bunları nəzərə alan Prezident İlham Əliyev Azərbaycanda mədəniyyətin, təhsilin, səhiyyənin və idmanın inkişafında səmərəli fəaliyyətinə, xalqın mədəni irsinin beynəlxalq miqyasda geniş təbliğinə və I Avropa Oyunlarının təşkilində böyük xidmətlərinə görə Mehriban Əliyevanı "Heydər Əliyev" ordeni ilə təltif edib. Ölkənin ən ali dövlət mükafatı olan "Heydər Əliyev" ordeni ilə təltif olunması da Mehriban xanımın Ümummilli Liderin ideyalarını Azərbaycanda layiqincə yaşatmasına, ölkənin qüdrətlənməsi, inkişafı, haqq səsinin dünyada eşidilməsi üçün müxtəlif layihələri gerçəkləşdirməsinə görə verilən yüksək qiymət idi.

2017-ci ilin fevral ayında isə Prezident İlham Əliyev böyük etimad göstərərək Mehriban xanımın Birinci vitse-prezident təyin olunması ilə bağlı sərəncam imzaladı. Ölkə ictimaiyyəti isə dövlət başçısının bu qərarını alqışladı. Çünki xeyirxahlığı, nəcibliyi, bənzərsiz ictimai fəaliyyəti ilə yanaşı Mehriban Əliyevanın ölkənin ən böyük siyasi təşkilatının - Yeni Azərbaycan Partiyası sədrinin müavini kimi fəaliyyəti də onun ölkənin Birinci vitse-prezidenti vəzifəsinə təyinatına tarixi haqq qazandırdı. Doğrudan da Ümummilli Lider Heydər Əliyevin ölməz ideyalarına bütün varlığı ilə bağlı olan, Prezident İlham Əliyevin həyata keçirdiyi çoxşaxəli daxili və xarici siyasətə layiqli töhfələrini verən Mehriban xanımın dövlətin ali idarəetmə sistemində ikinci yüksək vəzifəni daşımasına çoxdan siyasi və mənəvi haqqı çatırdı.

Dövlət başçısının sərəncamından bir neçə gün sonra Rusiya Federasiyasının "Rossiya 1" telekanalının "Vesti nedeli" proqramına müsahibəsində yeni təyinatın üzərinə qoyduğu böyük məsuliyyət barədə danışarkən Mehriban xanım qeyd etdi ki, Prezidentin etimadını, ən başlıcası isə ona inanan, ümid bəsləyən insanların etimadını doğrultmalıdır: "Məni Azərbaycanın Birinci vitse-prezidenti vəzifəsinə təyin etmək qərarı Azərbaycan Prezidentinin şəxsi təşəbbüsü olub. Əlbəttə, uzun illər ərzində həm Prezidentin xanımı, həm də onun silahdaşı olmağım da, yəqin ki, öz rolunu oynayıb... Mən Prezidentin etimadını, ən başlıcası isə mənə inanan, ümid bəsləyən insanların etimadını doğrultmalıyam. Mən də buna nail olmağa çalışacağam".

Mehriban Əliyevanın Birinci vitse-prezident təyin olunması idarəçilik sisteminin təkmilləşdirilməsi ilə bağlı həyata keçirilən işlərə xüsusi dinamika verdi və gələcək inkişaf, müasirləşmə strategiyasının bundan sonra da uğur qazanmasına əhəmiyyətli təkan oldu və beləliklə, 2017-ci ilin fevralından Mehriban xanım Əliyevanın həyatında yeni dövr başladı.










Bu şərəfli və məsuliyyətli vəzifədə yeni-yeni uğurlara, daha möhtəşəm nailiyyətlərə imza atan Mehriban xanım Azərbaycan xalqının maraqlarının müdafiəsinə yönəldilmiş hərtərəfli fəaliyyəti ilə bir daha təsdiq etdi ki, dövlət başçısının ən sadiq silahdaşıdır.

Ölkə əhalisinin ən həssas təbəqəsi olan doğma yurdlarından didərgin salınmış soydaşlarımıza diqqət və qayğı, onların qarşılaşdıqları problemlərin aradan qaldırılması dövlət siyasətinin prioritetini təşkil edir. Bu qəbildən olan insanlar üçün hər cür infrastruktura malik mənzillər tikilir, qəsəbələr salınır, yeni iş yerləri yaradılır və onların sosial müdafiəsinin daha da gücləndirilməsi istiqamətində müvafiq dövlət proqramları qəbul olunur. Əsas diqqətini sosial problemlərin, əhalinin aztəminatlı təbəqələrinin problemlərinin həlli üzərində cəmləşdirən Mehriban xanımın Birinci vitse-prezident kimi ilk müşavirəsini Bakı və Sumqayıt şəhərlərinin yataqxanalarında müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkün ailələrinin köçürülməsinə həsr etməsi bir daha təsdiqlədi ki, o, xeyirxah missiyasını uğurla davam etdirir.

Bütün imkan və bacarığını insanların rifahı naminə humanitar proqramların reallaşmasına, Azərbaycanın dünyada sivil ölkə kimi tanınmasına yönəldən Birinci vitse-prezident köməyə ehtiyacı olan insanlara hər an yardım etməyə hazır olub. Qarşıya qoyulan növbəti prioritet vəzifə isə qaçqın və məcburi köçkünlərin sosial müdafiəsinin gücləndirilməsi, həyat səviyyəsinin yüksəldilməsidir.

Mehriban xanımın təşəbbüsü, dəstəyi ilə həyata keçirilən çoxsaylı və irimiqyaslı layihələr böyük rezonans doğurur. Təhsil, səhiyyə, mədəniyyət sahəsində müxtəlif layihələrin reallaşdırılması bu sahələrin inkişafına misilsiz töhfələr verir.

Şəhid analarına göstərdiyi nəvaziş, Aprel döyüşlərində yaralanmış vətənin igid oğlanlarının müalicəsini öz üzərinə götürməsi və kimsəsizlərə sahib çıxması onun hər bir problemə həssas reaksiya verdiyini təsdiqləyən faktlardır. Göründüyü kimi, onun bütün təşəbbüslərinin, gerçəkləşdirdiyi layihələrin mərkəzində insan amili dayanır.

Azərbaycanın bir xoşbəxtliyi də ondadır ki, ölkə Prezidentinin belə ömür-gün yoldaşı, silahdaşı, xalqının xeyirxahı, qayğıkeşi var. Elə bir sahə yoxdur ki, onun diqqətindən kənarda qalsın. Onun bütün fəaliyyəti vətəndaşların müsbət qiymətini alaraq həqiqətən də müasir Azərbaycan tarixinin bir hissəsinə çevrilib.

Həm dövlət başçısının, həm də ona ümid bəsləyən insanların etimadını layiqincə doğruldan, əzmkar və geniş fəaliyyətinin təməlində xalqa layiqli xidmət məramı dayanan Mehriban Əliyeva tarixdə iz qoymuş vətənpərvər, maarifpərvər qadınlarımızın nümunəvi fəaliyyətini bu gün yeni keyfiyyətdə, həm də ləyaqətlə davam etdirir. Siyasi karyerası, ictimai fəaliyyəti dövründə başladığı bütün işlərin öhdəsindən böyük məharətlə, ustalıqla gəlir və hər kəs inanır ki, Mehriban xanım hazırda qüdrətli, nüfuzlu dövlətə çevrilmiş Azərbaycanın gələcək inkişafı, xalqımızın firavanlığı naminə çoxşaxəli fəaliyyətini bundan sonra da əzmlə davam etdirəcəkdir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***







# Kimsəsizin dayağı, çarəsizin ümidi

**Həyatda bəzi insanlar Tanrı tərəfindən seçilmiş olur və onlara müqəddəs missiyalar verilir. O da yer üzünün xoşməramlı sülh elçisidir...**

**Əməlləri bəşəridir, xeyirxah missiyası heç bir çərçivə, sərhəd tanımır...**

**Xoş niyyəti, məramı insanlığın rahat yaşaması üçün əzmlə çalışmaq, sülh, sevgi dolu cəmiyyətin var olmasına nail olmaqdır...**

**O, insanların könlündə özünə əbədi taxt qurub...**

Humanizm, insanpərvərlik kimi ali keyfiyyətlərin təcəssümünə çevrilməklə hamı üçün gözəllik, nəciblik, zəriflik, mərhəmət simvoluna çevrilib...

Kimsəsiz uşaqların ürəyində qövr eləyən ana həsrətini ovudan, xəstə, çarəsiz insanların ümidi, dayağı, şəhid analarının övlad ağrı-acısına məlhəm, yurd həsrəti çəkənlərin həmdəmidir...

Harada üzülən, qayğıya, köməyə, yardıma, təselliyə ehtiyacı olan, sadəcə xoş sözə, rəftara möhtac duyan biri varsa, ilk müraciət edəcəyi, pənah aparacağı şəxs də, heç şübhəsiz, bu uca insandır...

Birinci xanım, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti, UNESKO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva...

"Həqiqi mərhəmət real işlər görülməsini, real məsələlərin həllini, konkret addımlar atılmasını tələb edir. Biganəlik və laqeydlik ən dəhşətli xüsusiyyətdir. Bunlar olmamalıdır - istər ictimai xadim ol, istərsə də dövlət qulluğunda işləyən adam. İnsanlıq hissini qoruyub saxlamaq lazımdır", - deyir Mehriban xanım.

Bəli, özünün də vurğuladığı kimi, Mehriban xanımın yorulmaz fəaliyyətinin, əldə etdiyi nailiyyətlərin arxasında ülvi hisslər dayanır. Xeyirxahlıq və humanizm birinci xanımın yaşam prinsipidir, "sizə ehtiyacı olanların yanında olacaqsınız, yardımınıza ehtiyacı olanlara əl tutacaqsınız" deyə həyat fəlsəfəsini inamla və şərəflə davam etdirir.





Mehriban xanım atılmış, kimsəsiz uşaqlara mənəvi analıq, hamilik edir, bir an belə valideyn yoxluğunu hiss etmələrini istəmir. Adi günlərdə də, əziz günlərdə də onların yanında olur, doğma balası kimi bağrına basır, öpür, qayğı göstərir...

Onların da atalı-analı uşaqlar kimi özlərini arxa-dayaqlı hiss etmələri üçün əlindən gələni əsirgəmir, təhsil almaları, həyatda öz yollarını tapmaları üçün malik olduqları bacarıqlarını inkişaf etdirmələrinə çalışır. Kimsəsiz gənclərə ev tikdirir, toy edir, xoş günlərində qol götürüb oynayır, hədiyyələr verir...

Yaşı 18-ə çatmış gənclərin də uşaq evindən sonrakı taleyi Mehriban xanımın diqqətindən yayınmayıb. Heydər Əliyev Fondu internat həyatı başa çatan gənclər üçün yaşayış binası tikdirib onların istifadəsinə verib. Təbii ki, bu layihə müstəqil həyata qədəm qoyacaq gənclərin yaşamı üçün müstəsna əhəmiyyət kəsb edir.

Əminliklə demək olar ki, bu gün Azərbaycanda kimsəsiz uşaq yoxdur. Heç dayağı Mehriban xanım olan uşaq da kimsəsiz olarmı?!

Talassemiya, daun, autizm, əqli, fiziki qüsurlu, xərçənglə, şəkərlə və digər amansız xəstəliklərlə mübarizə aparan uşaqlar da Mehriban xanımın şəfqətinə sığınıblar. Bu uşaqlar Heydər Əliyev



Fondunun vəsaiti hesabına əməliyyat edilir, qanla, lazımi dərmanlarla təmin olunurlar. Birinci vitse-prezidentin təşəbbüsü və dəstəyi ilə Azərbaycanda Avropa səviyyəli talassemiya, daun, psixonevroloji uşaq mərkəzləri və bu qəbildən olan əhəmiyyətli obyektlər istifadəyə verilib. Mütəmadi olaraq həmin mərkəzlərə baş çəkən Mehriban xanım yaradılan şəraitlə tanış olur, bu müəssisələrin müasir tibbi avadanlıqlarla təchiz edilməsi istiqamətində tapşırıqlar verir. Uşaqlarla maraqlanır, zaman keçirir, sağlamlıqları istiqamətində əldə etdikləri kiçik nailiyyətlərə belə sevinir, onun sayəsində balaca barmaqları ilə həyata necə sıx tutunmalarından riqqətlənir...

Gecə-gündüz bu istiqamətdə həyata keçirdiyi layihələrin qarşılığında uşaqların gözlərində gördüyü, qəlblərində duyduğu sevinc bir dünya olur birinci xanım üçün: "İnsan gördüyü işin haqlı, xeyirli və lazımlı olduğuna daxilən inandıqda həvəslə işləyir, fiziki yorğunluq isə mənəvi məmnunluqla ödənilir".

Mehriban xanım il boyu rayonlara səfər edir, insanlarla görüşür, həmsöhbət olur, evlərinə qonaq gedir, dərdlərinə şərik olur, problemlərinin həlli istiqamətində tapşırıqlar verir. Bütün bu yorulmaz fəaliyyətin nəticəsidir ki, Mehriban xanım milyonların sevgisini qazanıb.

Elə bu il dünyaya gəlməsi ilə bütün Azərbaycana sevinc bəxş edən 10 milyonuncu vətəndaşımızın da adı Mehriban oldu. Onun kimi əzmkar, mətanətli, sülhsevər, vətənpərvər olsun deyə...

Mehriban xanım təkcə ölkə daxilində yox, bütün dünya miqyasında məşğul olduğu sahələr üzrə yüksək standart müəyyənləşdirən bir xanımdır. O, fəaliyyəti, atdığı humanist addımlarla dünya birinci xanımlarına, xoşməramlı səfirlərə, bugünkü və gələcək gənc qızlara ideal obrazdır, təkrarlanması vacib nümunədir...

UNESKO və ISESCO-nun xoşməramlı səfirinin fəaliyyəti Azərbaycan sərhədlərini aşıb. Bu gün Mehriban xanımın xeyirxahlıq missiyası bütün dünyada alqışlanır, təqdir qazanır, qiymətləndirilir. Aldığı beynəlxalq və yerli mükafatlar, ordenlər sayagəlməzdir.

İctimai-siyasi fəaliyyətlə yanaşı, Mehriban xanım ailəsinə də zaman ayırmağı, qayğı göstərməyi özünün ümdə vəzifəsi hesab edir: "Mən öz vəzifələrimi vaxtında yerinə yetirmək üçün düzgün iş forması, düzgün tarazlıq tapmağa çalışıram. Əlbəttə, mən ilk növbədə həyat yoldaşımın xanımıyam, uşaqlarımın anasıyam, beş nəvəm var və həyatımın bu hissəsinə ayırdığım diqqətin ikinci plana keçməsini əsla istəmirəm. İndiyə qədər bunu bacarmışam. Ümidvaram ki, gələcəkdə də bunu bacaracağam. Mən bişirib-düşürməyi çox xoşlayıram. Bu işlə məşğul olanda yaxşıca dincələ bilirəm. Axı dadlı yeməklər hazırlamaq da müəyyən mənada yaradıcı işdir. Mən bu işi sevirəm, bu işi görürəm və bacarıram".

Mehriban xanımın hər səhifəsi uğur hekayəsi ilə dolu həyat kitabına nəzər saldıqda təəccüblənməyə, heyrətlənməyə bilmirsən. Düşünməyə bilmirsən ki, bu qədər çoxşaxəli, çətin işlərin öhdəsindən gəlməyi zərif bir xanım necə bacarır.

Amma bu sualın çox sadə cavabı var. Mehriban xanımın qalibiyyəti, uğuru daxili və xarici gözəlliyinin, xeyirxahlığının, humanistliyinin, sülhsevərliyinin harmoniyasından və özünə, gördüyü və görəcəyi işlərin müstəsnalığına olan böyük inamından doğur...

Deyirlər, dünyanı gözəllik xilas edəcək. Xoş əməllər, sevgi, şəfqət, mərhəmət əbədi mübarizədə şərə qalib gələcək.

Elə Mehriban xanımın özünün də vurğuladığı kimi: "Biz dinamik inkişaf edən dünyada yaşayırıq. Baş verən bütün dəyişikliklərə baxmayaraq, insanlıq və saflıq, səmimilik və xeyirxahlıq, mərhəmət və sevgi həmişəki kimi başlıca dəyərlər olaraq qalır".

Mehriban xanım da bu dünyaya xeyirxah missiya ilə gəlib. Kimsəsizə dayaq olmaq, ehtiyacı olana yardım etmək və bu nəcib əməlləri örnək kimi cəmiyyətə, gələcək nəsillərə ötürmək üçün...

***Yasəmən MUSAYEVA,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***

# Milli musiqiyə verilən dəyər

**Bəşər övladları əvvəlcə hisslərini, duyğularını musiqi ilə dilə gətirdilər. Sonra sözləri yaratdılar. Yalnız gözləri ilə gördüklərinə deyil, duyduqlarına, hiss etdiklərinə də ad verdilər. Amma musiqi yenə öz hökmünü saxladı. Dilə gəlməz, izaholunmaz duyğuların ən gözəl ifadəçisi oldu.**



Sözlə musiqi bir dildə "danışmağa" başladı. Bu vəhdətdən nəğmələr yarandı. Sözlə musiqinin ən möhtəşəm abidəsi isə muğam oldu. Onun hər zənguləsi ruhun pıçıltısına, könül harayına döndü. Hər pərdəsində gah dərd, kədər nalə çəkdi, gah da sevinc coşdu, çağladı...

Sirlərinə vaqif olmağa çalışanlar "muğam sənəti bir ümmandır" deyirlər. Tarixini, yaşını bilən yoxdur. Əsrlərə yol yoldaşıdır. Zamanın gərdişində müəlliflərinin adları unudulub və bütöv bir xalqın milli-mənəvi sərvətinə çevrilib. Azərbaycan muğamlarının müəllifi - bəstəkarı da, söz yazarları da xalqımızdır. Yüzillərdir muğamlarımız ən böyük dəyərlərimizdən, mənəvi sərvətlərimizdən biridir.

"Çahargah", "Rast", "Şur", "Humayun", "Segah", "Bayatı-Şiraz" və digər muğamlarımız dilindən, dinindən, irqindən asılı olmayaraq hər bir musiqisevərin qəlbinə yol tapa bilir. Ona görə də muğamı yalnız Azərbaycanda, Şərq ölkələrində deyil, ümumilikdə dünyada sevir, bəşəriyyətin mənəvi irsinin bənzərsiz xəzinələrindən sayırlar.

Hələ 1971-ci ildə UNESKO 50 albomdan ibarət "Dünya ənənəvi musiqisinin antologiyası" kolleksiyasına "Şərqin musiqi antologiyası" seriyasında çıxan "Azərbaycan musiqisi" valını da daxil etdi. 1975-ci ildə Azərbaycan muğamları yenə də UNESKO tərəfindən "Musiqi mənbələri" seriyasında buraxıldı.

ABŞ Milli Kosmik Agentliyi tərəfindən 1977-ci ildə Azərbaycanın muğam musiqi nümunəsi peyklə kosmosa göndərildi.

Xalqımızın milli sərvəti olan muğama bütün dünyada diqqət, sevgi, heyranlıq var. Bu səbəbdən 26 Avqust Beynəlxalq Azərbaycan Muğamı Günü və İpək yolu üzərində yerləşən ölkələrin musiqisi günü kimi qeyd edilir. Bu barədə qərar 2010-cu ildə Kanadanın Niaqara şəhərinin meriyası və ənənəvi olaraq hər il keçirilən Beynəlxalq Niaqara musiqi festivalının rəhbərliyi tərəfindən qəbul olundu.

Həmin gün bütün muğamsevərlərin bayramıdır. Hər il avqustun 26-da dünyanı heyrətə salan Azərbaycan muğamlarının xalqımızın tarixində dərin kökləri olduğu bir daha bəyan edilir.

Azərbaycan muğamları bu günlərə keşməkeşli yollardan keçərək gəldi. Tarixin ayrı-ayrı dönəmlərində muğam sənətinə düşmən kəsilənlər, onu gözdən salmağa çalışanlar da oldu. Xüsusilə sovet hakimiyyətinin ən sərt çağlarında - 1930-cu ildən 1970-ci ilədək bu sənətin bəsitliyini, primitivliyini iddia edənlər var idi. Onlar muğamları unutdurmaq üçün əllərindən gələni əsirgəmirdilər. Amma buna nail ola bilmədilər. Muğam sənətinin qiymətini bilənlər onu sevərək yüksək tutdular. Bütün çətinliklərə rəğmən Azərbaycan xalqı göstərdi ki, öz milli kimliyini ifadə edən dəyərləri qoruyub yaşatmağa qadirdir.

XX əsrin sonlarında Azərbaycan xalqı ən böyük arzusuna, məqsədinə çatdı. Azərbaycanın müstəqilliyi bərpa olundu. Bu gün ölkəmiz öz müqəddəratını həll etmək, milli-mənəvi dəyərlərinə sahib çıxmaq iqtidarındadır. Azərbaycan muğamı da dövlət tərəfindən qorunur, təbliğ və inkişaf etdirilir.

Ölkəmizdə milli-mənəvi dəyərlərin qorunması, mədəniyyətimizin təbliği sahəsində həyata keçirilən layihələr sırasında muğam sənətinə də xüsusi diqqət göstərilir. Bu məqsədlə respublikamızın paytaxtında Beynəlxalq Muğam Mərkəzi yaradıldı. Heydər Əliyev Fondunun milli mənəvi dəyərlərimizin qorunması və dünyada geniş təbliği ilə bağlı reallaşdırdığı möhtəşəm layihələr sırasında xüsusi əhəmiyyəti olan bu mərkəzin açılışı 2009-cu il dekabrın 27-də oldu. Regionlarımızda da Muğam mərkəzləri yaradıldı.

Muğamın inkişafı və dünyada tanıdılması məqsədilə Heydər Əliyev Fondu tərəfindən müxtəlif müsabiqələr, beynəlxalq festivallar təşkil edilir. 2005-ci ildə görkəmli Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin 120 illik yubileyi münasibətilə fondun təşkilatçılığı ilə muğam müsabiqəsi düzənləndi. Heydər Əliyev Fondu tərəfindən muğam sənətinin qorunub saxlanılması, zəngin tarixə malik ifaçılıq sənətinin gələcək nəsillərə çatdırılması, yeni ifaçılar nəslinin yetişdirilməsi məqsədilə sonrakı illərdə - 2007, 2009, 2011, 2013, 2015, 2017 və 2019-cu illərdə də muğam müsabiqələri keçirildi və müsabiqə qalibləri Heydər Əliyev Fondu tərəfindən mükafatlandırıldı.

Heydər Əliyev Fondunun 2008-ci ildə Azərbaycan muğamına həsr olunan daha bir nəşri - "Azərbaycanın muğam ensiklopediyası" (iki cilddə) Azərbaycan, rus və ingilis dillərində işıq üzü gördü.

Muğamın əsrarəngizliyini, dərin fəlsəfəsini dinləyicilərə çatdırmaq, təbliğ etmək məqsədilə Heydər Əliyev Fondu tərəfindən irimiqyaslı layihələr həyata keçirilir. "Qarabağ xanəndələri" musiqi albomu da "Azərbaycan muğamları" layihəsi çərçivəsində nəfis şəkildə nəşr edildi.

Dünyada ilk dəfə ölkəmizin paytaxtında Heydər Əliyev Fondunun təşəbbüsü və təşkilati dəstəyi ilə "Muğam aləmi" Beynəlxalq Muğam Festivalı düzənləndi. Festival çərçivəsində keçirilən Respublika Muğam Müsabiqəsi, Beynəlxalq Muğam Müsabiqəsi və Beynəlxalq Elmi Simpoziumda muğamsevərlər, elmi tədqiqatçılar, həmçinin dünyanın bir çox ölkələrindən dəvət olunmuş qonaqlar iştirak etdilər.

Muğam müsabiqələri Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESKO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın rəhbərliyi ilə həyata keçirilir.

Muğamlarımızın təbliğində, nəsildən-nəslə ötürülməsində xanəndələrimizin xidmətləri danılmazdır. Hələ qədim zamanlardan muğam dinləməkdən zövq alan azərbaycanlılar onu qoruyan, yaşadan, inkişaf etdirən sənətkarlara çox böyük hörmət, ehtiram göstəriblər. Doğrudur, texnikanın inkişaf etmədiyi vaxtlarda xanəndələrin möhtəşəm ifalarını lent yazılarının yaddaşına köçürmək mümkün olmadı. Ancaq o sənətkarların adı, ifa tərzi xalqın hafizəsində yaşadı.

Bütün dövrlərdə ustad xanəndələr gənclərə muğam sənətinin sirlərini öyrətməyi özlərinə mənəvi borc biliblər. Beləcə, muğam məktəblərimiz heç vaxt ardıcılsız qalmayıb. Görkəmli sənətkarların sənət yolları ardıcılları tərəfindən davam və inkişaf etdirilib. Seyid Şuşinski, Xan Şuşinski, Cabbar Qaryağdıoğlu, İslam Rzayev, Hacıbaba Hüseynov, Rübabə Muradova, Yavər Kələntərli, Əbülfət Əliyev, Əlibaba Məmmədov, Arif Babayev, Alim Qasımov, Mənsum İbrahimov və başqa istedadlı xanəndələr muğamı ustad sənətkarlardan öyrənərək özlərinə məxsus səsləri, ifaları ilə ona yeni çalarlar qatdılar.

Bu gün də Azərbaycan muğam sənətinin dünyada tanıdılmasında peşəkar musiqiçilərimizin və xanəndələrimizin rolu diqqətəlayiqdir. Onların dünyanın əksər ölkələrinin konsert salonlarında müxtəlif milli mənsubiyyətə, fərqli dilə sahib olan tamaşaçıların qarşısında ifa etdikləri muğamlar musiqisevərlərin qəlbini riqqətə gətirir.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Əli ƏHMƏDOV: “Gənclərimiz Prezident İlham Əliyevin yürütdüyü siyasətin həyata keçməsinə öz töhfələrini verəcəklər”

Avqustun 24-də Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə Masallı Olimpiya İdman Kompleksində gənclərlə görüş keçirilib.





Görüşdə Azərbaycan Respublikası Baş Nazirinin müavini, Yeni Azərbaycan Partiyası sədrinin müavini-icra katibi Əli Əhmədov, YAP icra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov, deputatlar Hadi Rəcəbli, Nəriman Əliyev və ictimaiyyət nümayəndələri iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, görüş Dövlət himninin səsləndirilməsi ilə başlayıb. Yeni Azərbaycan Partiyasının Masallı Rayon Təşkilatının sədri Seyfəddin Əliyev tədbiri açaraq Yeni Azərbaycan Partiyasının memarı və qurucusu, Ümummilli Lider Heydər Əliyevin layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində ölkəmizin gündən-günə inkişaf etdiyini, yeni nailiyyətlərin qazanıldığını bildirib. O, Azərbaycanı dünya miqyasında idman, multikulturalizm, milli tolerantlıq və bir çox digər sahələr baxımından nümunəvi ölkəyə çevrildiyini qeyd edib.

Sonra Azərbaycan Respublikası Baş Nazirinin müavini, YAP sədrinin müavini-icra katibi Əli Əhmədov çıxış edib. Əli Əhmədov ölkəmizdə gənclər üçün hər cür həyat şəraitinin yaradıldığını bildirib. Baş Nazirin müavini gənclərin Azərbaycanda və ondan kənarda da dövlətimizi və dövlətçiliyimizi müdafiə etdiklərini deyib. YAP sədrinin müavini qeyd edib ki, biz gənclərimizə böyük inamla yanaşırıq: “Onların bu günü və gələcəyi üçün Azərbaycan hökuməti böyük işlər görməkdədir. Prezident İlham Əliyevin apardığı siyasətdə gənclərə çox böyük önəm verilir. Bu gün biz gənclərlə ciddi şəkildə işləyirik, onlarla müxtəlif tədbirlər keçiririk. İstəyirik ki, Azərbaycanın gələcəyi etibarlı əllərdə olsun. Gənclik, eyni zamanda, gələcək, müasirlik deməkdir. Biz istəyirik ki, Azərbaycanın gəncləri yaxşı təhsil alsınlar və biliklərə yiyələnsinlər. Əminəm ki, gənclərimiz Prezident İlham Əliyevin yürütdüyü siyasəti dəstəkləməklə həmin siyasətin həyata keçməsinə öz töhfələrini verəcəklər”.

Sonra Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli, Milli Məclisin deputatı Nəriman Əliyev çıxış edərək gənclərin fəallığından, rayonun ictimai-siyasi həyatında yaxından iştirak etmələrindən, dövlətə, dövlətçiliyimizə, Prezident İlham Əliyevin apardığı uzaqgörən siyasətə həmişə sədaqətli olmalarından bəhs ediblər.

Daha sonra idmançılar öz məharətlərini göstəriblər.

Tədbir incəsənət nümayəndələrinin çıxışları ilə davam edib.

Həmin gün Masallı şəhər Heydər Əliyev Mərkəzində Yeni Azərbaycan Partiyası Masallı, Cəlilabad, Yardımlı və Biləsuvar rayon təşkilatları sədrlərinin iştirakı ilə zona müşavirəsi keçirilib.

Müşavirədə çıxış edən Baş Nazirin müavini, Yeni Azərbaycan Partiyası sədrinin müavini-icra katibi Əli Əhmədov ölkəmizdə sosial-iqtisadi inkişaf sahəsində qazanılmış uğurlardan danışıb.

YAP sədrinin müavini, həmçinin bildirib ki, partiya üzvləri qazanılan uğurları geniş təbliğ etməli, bu işdə sosial şəbəkənin imkanlarından faydalanmalıdırlar. Müstəqil Azərbaycanın inkişafını görmək istəməyən dairələrin, o cümlədən radikal müxalifətin sosial şəbəkələr vasitəsilə ölkəmizə qarşı qarayaxma kampaniyası apardıqlarını diqqətə çatdıran Əli Əhmədov bu dairələrin əsl niyyətlərinin ifşa olunmasında gənclərin fəal olmasının vacibliyini vurğulayıb.

Zona müşavirəsində çıxış edən Masallı, Cəlilabad, Yardımlı və Biləsuvar rayon təşkilatlarının sədrləri görülən işlər barədə məlumat verərək qarşıda duran vəzifələrlə bağlı təkliflərini bildiriblər.

# Sənaye məhəllələri yerli sahibkarlara geniş imkan yaradır

Əvvəli 1-ci səh.






Həmin müəssisəyə də Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 600 min manat güzəştli kredit verilib.

“Gilan PİVOT” MMC-nin investisiya dəyəri isə 1 milyon manatdır. İllik istehsal gücü 60-80 suvarma sistemləri olan müəssisədə 15 nəfər işlə təmin edilib. Bundan başqa, Neftçala Sənaye Məhəlləsində “Toğrul-2008”, “Providence Limited”, “Azproduct”, “Petroqeoaz” MMC-lər fəaliyyət göstərir.

Hacıqabul Sənaye Məhəlləsi də istifadəyə verilmək ərəfəsindədir. Tikinti işlərinə 200 nəfər cəlb edilib. Sabirabad Sənaye Məhəlləsi isə 20 hektar ərazidə yaradılır. Artıq burada tikinti işlərinə başlanılıb. İnşaat işləri ilə 200 nəfər məşğul olur.

Masallı Sənaye Məhəlləsi Prezident İlham Əliyevin 2016-cı il iyunun 13-də imzaladığı sərəncamla yaradılıb. Ümumi sahəsi 10 hektar olan məhəllədə tikinti işlərinə 2017-ci ilin iyulunda başlanmışdı. Sənaye məhəlləsində dövlət vəsaiti hesabına lazımi infrastruktur, o cümlədən 2,5 MVt gücündə elektrik enerjisi təchizatı, gücü saatda 25 kubmetr olan sutəmizləyici qurğu qurulub, su və kanalizasiya sistemi, təbii qaz təchizatı, rabitə və nəqliyyat infrastrukturu yaradılıb. Eləcə də yüksək standartlara cavab verən 3 istehsal modulu, ikimərtəbəli inzibati bina, texniki və köməkçi binalar tikilib, genişmiqyaslı abadlıq işləri aparılıb. İlk mərhələdə burada mebel, dam örtükləri və aksesuarları, dəmir məmulatları, döşək, taxta emalı və məmulatları istehsal olunur. Ümumiyyətlə, bu sənaye məhəlləsində sahibkarlıq subyektləri tərəfindən 5 milyon 230 min manat dəyərində 10 layihə təqdim edilib. Artıq reallaşdırılan bu layihələr çərçivəsində 200 yeni iş yeri açılıb.

***Rüstəm KAMAL, “Azərbaycan”***

Neft layihələri və ekologiya

# Ətraf mühitə təsir məsuliyyətlə idarə edilir

## Hasilat zamanı bu, əsas şərtlərdən biri sayılır

Əvvəli 1-ci səh.





Səngəçalda çirkab suların təmizlənməsi qurğusunun modernləşdirilməsi tullantıların daha səmərəli idarə olunmasına imkan verib. Ümumiyyətlə, Səngəçal terminalında ətraf mühitin mühafizə olunmasına və istismar əməliyyatlarının bütövlüyünə yanaşma həmişə səmərəli olub. Tullantıların təhlükəsiz idarə olunması üçün çirkab suların axın xəttinin modernləşməsi buna aydın misaldır.

Terminalla sahildəki magistral yol arasından üçüncü tərəflərə məxsus, sovet dönəmindən qalan bir neçə boru kəməri keçir. Bu ərazinin strateji əhəmiyyətini nəzərə alaraq, BP və SOCAR birlikdə həmin boruların müntəzəm qaydada təftişini aparırlar.

Səngəçaldan söz düşmüşkən, BP ölkəmizdə əməliyyatçı olduğu layihələrdəki tərəfdaşları adından qonşu icmalarda ətraf mühit şəraitinin yaxşılaşdırılması məqsədi daşıyan “Yaşıl Səngəçal” adlı ekoloji bir layihə də həyata keçirib. Bu layihə çərçivəsində Qaradağ rayonunun yaşayış sahələrindən biri təmizlənib abadlaşdırıldıqdan sonra orada 1000 ağac, kol və digər bitkilər əkilib. İdman avadanlıqları ilə təchiz olunmuş yaşıl həyət yaradılıb.

Məlumdur ki, mövcud yataqlardan hasilatın təbii şəkildə azalması nəticəsində neftlə birlikdə çıxarılan suyun miqdarı artır. “Azəri-Çıraq-Günəşli” (AÇG) yataqlarından çıxarılan lay suları neftdən həm dənizdəki qurğularda, həm də Səngəçal terminalında ayrılır. Keçən il “Şahdəniz”dən çıxan lay suları da AÇG qurğularına birləşdirildi.

Lay sularının kollektora vurulması səmərəli bir tədbir kimi qüvvədə qalır və 2018-ci ildə bu sahədəki göstərici ondan əvvəlki ilə nisbətən daha yüksək olub. Lay sularının dənizə atqısı da yarıya qədər azalıb.

Əməliyyat qurğularında məşəldə yandırılan qazın miqdarının getdikcə azaldılması da qarşıya qoyulan vəzifələrdən biridir. Mövcud platformalarda məşəldə yandırılan qaz azaldılsa da, yeni qurğuların istismara daxil olması nəticəsində bu məsələni tam aradan qaldırmaq mümkün deyil. Bununla belə, məşəldə yandırılan qazın həcminin azaldılması ilə bağlı tədbirlər davam edir.

BP Azərbaycan şirkətinin 2018-ci ilə aid “Davamlı inkişaf haqqında hesabat”ında bildirilir ki, şirkət iqlim dəyişikliyinin aktuallığını bilərək bu problemin həllində fəal iştirak etməyə çalışır: “BP Dünya Bankının “Sıfır Səviyyədə Müntəzəm Məşəldə Yandırma - 2030” təşəbbüsünü imzalayıb. İqlim və Təmiz Hava Koalisiyasının Neft-Qaz Metan Tərəfdaşlığına və hazırda qrupun baş icraçı direktoru Bob Dadlinin rəhbərlik etdiyi Neft-Qaz İqlim Təşəbbüsünə qoşulub. Biz 2018-ci ildə İXQ (istixana qazı) emissiyalarının davamlı azaldılması üzrə 95 min tondan artıq göstəriciyə nail olduq”. Bunun nəticəsində qrupun 0,2 faizlik hədəfi ilə müqayisədə metan intensivliyi 0,032 faizə qədər enib.

Bütün bunlar göstərir ki, görülən genişmiqyaslı işlər çərçivəsində ətraf mühitə mənfi təsir göstərməmək daim gündəmdə olan, öz əhəmiyyətini itirməyən vacib bir məsələ kimi qalır.

***Flora SADIQLI, “Azərbaycan”***

# 7 ayın makroiqtisadi nəticələri nədən xəbər verir

Əvvəli 1-ci səh.

Yeddi ay ərzində ölkədə 27,3 milyard manatlıq sənaye məhsulları istehsal edilmişdir ki, bu da 2018-ci ilin yanvar-iyul aylarına nisbətən 2,2 faiz çoxdur. Ümumilikdə bu dövr sənayenin qeyri-neft sektorunda məhsul istehsalı 15,8 faiz artmışdır. Sənaye məhsullarının 70 faizi mədənçıxarma, 25,1 faizi emal, 4,2 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,7 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal edilmişdir. Mədənçıxarma sektoru üzrə neft hasilatı 2,5 faiz azalmış, əmtəəlik qaz hasilatında 34 faiz artım qeydə alınmışdır.

Emal sektorunda maşın və avadanlıqların istehsalı 13,6, mebel istehsalı 33,6, kağız və karton istehsalı 28,5, rezin və plastik kütlə məmulatları istehsalı 27,2, toxuculuq sənayesi məhsulları istehsalı 40,9, içki istehsalı 52,2, kimya sənayesi məhsulları istehsalı 30,4, maşın və avadanlıqların quraşdırılması, təmiri 26,4, tikinti materiallarının istehsalı 7,8, əczaçılıq məhsulları istehsalı 1,3, qida məhsulları istehsalı 18,3, tütün məmulatları istehsalı 25,1, geyim istehsalı 5,6, poliqrafiya məhsulları istehsalı 14,9, hazır metal məmulatları istehsalı 59,2, kompüter, elektron və optik məhsulları istehsalı 55,4, neft məhsulları istehsalı 1,4 faiz, ağacın emalı və ağacdan məmulatların istehsalı isə 2,3 dəfə artmışdır. Artım həmçinin elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, eləcə də su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında qeydə alınmışdır - müvafiq olaraq 3,2 və 7,4 faiz.

Hesabata əsasən, ötən 7 ay ərzində əsas kapitala 7 milyard 395,5 milyon manat vəsait yönəldilmişdir. İstifadə olunmuş ümumi vəsaitin 64,3 faizi məhsul istehsalı və 26,4 faizi xidmət obyektlərinin, 9,3 faizi yaşayış evlərinin tikintisinə sərf edilmişdir. 70,8 faizi daxili sərmayələr olan bu vəsaitlərin 67,7 faizi bilavasitə tikinti-quraşdırma işlərinə yönəldilmişdir.

Bütün bu vəsaitlər hesabına ötən dövr ərzində ölkə üzrə bir sıra müxtəlif təyinatlı müəssisə və obyektlər, o cümlədən Bakıda Əmlak Məsələləri Dövlət Komitəsinin Əmlak Xidmətləri Məkanı, Mərdəkan-Qala avtomobil yolu, Pirallahı Sənaye Parkında şpris istehsalı zavodu, ilk DOST mərkəzinin inzibati binası, 140 yerlik məktəbəqədər tədris müəssisəsi, 200 çarpayılıq xəstəxana, Sumqayıtda “SOCAR karbamid” və polietilen zavodları, Beyləqanda olimpiya idman kompleksi, tarix-diyarşünaslıq muzeyi, Kəbirli-Eyvazlılar-Birinci Aşıqlı-Əlinəzərli, Mingəçevir-Stansiya Mingəçevir-Bəhrəmtəpə-Beyləqan avtomobil yolları, Qobustan rayonunda “Azərxalça” ASC-nin filialı, Qobustan-Poladlı avtomobil yolu, eləcə də Naxçıvan MR-də 1170 şagirdlik iki ümumtəhsil məktəb binası, 200 yerlik məktəbəqədər təhsil müəssisəsi, 2 ambulatoriya-poliklinika, Goranboy, Qobustan və Şəmkir rayonlarında 440 çarpayılıq 3 xəstəxana və s. istifadəyə verilmişdir.

Ümumiyyətlə, cari ilin yanvar-iyul aylarında ölkə üzrə qeyri-neft-qaz sənayesi sektoruna 772,9 milyon manat vəsait xərclənmişdir. Yeri gəlmişkən qeyd edək ki, bu dövrdə əsas kapitala 2 milyard 162,4 milyon manat xarici kapital da yönəldilmişdir.

Dövlət Statistika Komitəsi yanvar-iyun ayları üzrə ölkədə muzdla işləyənlərin orta aylıq əməkhaqqı barədə də məlumat açıqlamışdır. Bildirilir ki, Azərbaycanda bu dövr orta aylıq nominal əməkhaqqı ötən ilin eyni dövrü ilə müqayisədə 8,2 faiz artaraq 585,2 manata çatmışdır. Əhalinin ümumi gəlirlərinə gəldikdə, həmin məbləğ ilin 7 ayı üzrə 32,2 milyard manat olmuşdur ki, bu da nominal ifadədə ötən ilin eyni dövründəkindən 6,6 faiz çoxdur.

DSK-nın digər bir məlumatı ölkə üzrə pərakəndə ticarət haqqındadır. Hesabatda bildirilir ki, 2019-cu ilin yanvar-iyul aylarında pərakəndə ticarət şəbəkəsindən əhaliyə satılmış məhsulların dəyəri əvvəlki ilin eyni dövrünün səviyyəsini müqayisəli qiymətlərlə 2,9 faiz üstələyərək 21,1 milyard manatdan çox olmuşdur. Eyni zamanda bu dövrdə əhaliyə 4,8 milyard manatlıqdan çox (keçən ilin eyni dövründəkindən 1,8 faiz artıq) ödənişli xidmətlər də göstərilmişdir.

O ki qaldı qiymətlərə, DSK-nın açıqladığı rəqəmlərə əsasən, ilin əvvəlindən ötən 7 ay ərzində istehlak məhsullarının və ödənişli xidmətlərin qiymətləri 2018-ci ilin eyni dövrünə nisbətən ümumilikdə 2,7, o cümlədən ərzaq, içki və tütün məmulatları üzrə 3,1, qeyri-ərzaq malları üzrə 1,3, ödənişli xidmətlər üzrə 3 faiz bahalaşmışdır.

Azərbaycanın bu dövrdə xarici ticarət əlaqələrində də müsbət nəticələr qeydə alınmışdır. Hesabatda bildirilir ki, ilin əvvəlindən ötən 6 ay ərzində gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri də nəzərə alınmaqla cari ilin yanvar-iyul aylarında ölkənin xarici ticarət dövriyyəsinin dəyəri 16 milyard 866,2 milyon dollara çatmışdır. Ticarət dövriyyəsinin 58,4 faizini ixrac, 41,6 faizini idxal məhsulları təşkil etmişdir ki, bu da 2 milyard 835 milyon dollarlıq müsbət ticarət saldosu deməkdir.

Xarici ticarətdə digər mühüm fakt ixracda qeyri-neft məhsullarının xüsusi çəkisinin artmasıdır. Hesabata görə, ilin əvvəlindən ötən 6 ay ərzində Azərbaycandan 979,1 milyon dollarlıq qeyri-neft məhsulları ixrac olunmuşdur. Bu isə ötən ilin analoji dövrünə nisbətən faktiki qiymətlərlə 15,7, real ifadədə 11,1 faiz çoxdur.

***R.MƏMMƏDLİ, “Azərbaycan”***

# Ağstafadakı “Dilbaz Atçılıq Təsərrüfatı” əvvəlki şöhrətini qaytarır





Əvvəli 1-ci səh.

Yalnız 1944-cü ildə bu atların keyfiyyətləri nəzərə alınaraq Ağstafa Dilbaz Atçılıq Dövlət Döllük Ocağı təşkil olunmuşdu. Həmin vaxtdan sonra Dilbaz atlarının həm cinsi yaxşılaşdırılmış, həm də sayı xeyli artırılmışdır. Bu cinslər cıdır meydanlarında özlərini göstərmiş, keçirilən yarışlarda layiqli yerlər tutmuşlar. 1962-1990-cı illərdə bu atlar ümumittifaq yarışlarında 39 dəfə iştirak etmiş və 8 dəfə birinci yerə çıxmışdılar. Dilbaz 36 dəfə müxtəlif attestatlar almışdır. Bu atlar 1869-cu ildə Moskvada, 1895-ci ildə Tiflisdə və 1912-ci ildə Rusiyanın Pyatiqorsk şəhərində keçirilmiş at sərgisində nümayiş etdirilmişdir.

Nəhayət, 1923-cü ildə ölkəmizdə atçılıq müəssisələrinin yaradılmasına başlanılmışdır. O cümlədən 1923-cü ildə Bakıda Cıdır meydanı, 1934-cü ildə Şəkinin Daşüz ərazisində 71 saylı at zavodu, 1949-cu ildə Ağdam və Ağstafa atçılıq zavodları yaradılmışdır. Şəki Daşüz ərazisində yaradılan 71 saylı zavodda 2 bölmə təşkil edilmiş, onlardan birində Kabardin, digərində Qazax (Azərbaycan) atlarının ərəb atları ilə çarpazlaşdırılmasından mələzlər alınmışdır. Bundan başqa, zavoda Qazax rayonundan 41 baş təmiz cins Dilbaz madyanı və 2 baş törədici ayğır da verilmişdir.

Keçmiş Sovetlər birliyi dağıldıqdan sonra digər sahələr kimi, Azərbaycanda da atçılığın inkişaf etdirilməsi mümkün olmamışdır. Xüsusilə Ağstafa atçılıq zavodunun fəaliyyəti, demək olar ki, dayandırılmışdır. Lakin Ulu Öndər Heydər Əliyev ikinci dəfə siyasi hakimiyyətə qayıtdıqdan sonra Azərbaycanda atçılığın cins tərkibinin yaxşılaşdırılması və inkişaf etdirilməsi ilə bağlı bir sıra uğurlara nail olunmuşdur. Daha sonra Prezident İlham Əliyevin verdiyi tapşırıqlara uyğun olaraq bu sahədə bir sıra addımlar atılmış, Ağdam atçılıq zavodu ilə yanaşı, Ağstafa atçılıq zavodunun yenidən qurulmasına başlanılmışdır. Ağstafanın Böyük Kəsik kəndində Dilbaz atları üçün təsərrüfat genişləndirilir. Təsərrüfatın direktoru Səlimxan Gülalıyev deyir ki, Prezident İlham Əliyevin apardığı məqsədyönlü siyasət nəticəsində Azərbaycan iqtisadiyyatı gündən-günə inkişaf edərək yüksəlir. Bütün sahələrdə olduğu kimi, atçılıq təsərrüfatı da özünün inkişaf dövrünü yaşayır. 1997-ci ildən fəaliyyətini bərpa edən təsərrüfatda hazırda 137 baş at saxlanılır ki, onlardan da 28-i madyan, 3-ü ayğır, qalanı isə müxtəlif yaş qrupundan olanlardır. Dövlət başçısının müvafiq sərəncamı ilə 2015-ci ildə Dilbaz at cinsinin inkişaf etdirilməsi ilə bağlı tədbirlərin görülməsi üçün 1,5 milyon manat vəsait ayrılmışdır ki, bu da müəssisənin problemlərinin köklü şəkildə həllinə təkan vermişdir. Hazırda kompleksdə sürətli tikinti-quruculuq işləri davam etdirilir. Təsərrüfatda Avropa standartlarına uyğun at tövləsi, atları müayinə və müalicə etmək üçün stasionar baytarlıq otağı, yarışlara hazırlamaq üçün cıdır meydanı, işçilərin normal şəraitdə işləməsi üçün ofis və digər zəruri binalar inşa edilir. Təsərrüfatın 435 hektar əkin, 927 hektar örüş sahəsi var ki, bu da atların yemlənməsi üçün kifayət edir. Bundan başqa, təsərrüfatda 12 nəfər daimi işlə təmin edilmişdir. Bir sözlə, indi Azərbaycanın milli sərvəti olan Dilbaz atlarının inkişaf etdirilməsi üçün bütün imkan və şərait var.

***Sabir ƏLİYEV, “Azərbaycan”***



# TURİZM



● Turizmə dövlət qayğısı

## Azərbaycan turizm ölkəsinə çevrilir

**Müasir dünyada turizm hər bir ölkə üçün iqtisadiyyatın ən dinamik inkişaf edən sahələrindən biri sayılır. Turizm artıq bütün dünyada geniş və sürətlə inkişaf edən iqtisadi sektora çevrilib. Prezident İlham Əliyevin fərman və sərəncamlarının icrası çərçivəsində bu sahənin inkişafı Azərbaycanda ildən-ilə genişlənir.**







Bu sektorun aparıcı qüvvəyə çevrilməsi özünü yeni iş yerlərinin açılmasında, turizmlə bağlı müəssisələrin və infrastrukturun qurulmasında, ölkəmizə gələn turistlərin sayının ildən-ilə artmasında göstərir. Son illər turistlərin Azərbaycana axını, xüsusən də yaz-yay aylarında kütləvi hal alıb. Beləliklə, turizm iqtisadiyyatımızın aparıcı sahələrindən birinə çevrilib. Respublikamızda turizm sahəsinin inkişafı üçün qanunvericilik bazasının təkmilləşdirilməsi məqsədilə "Turizm haqqında" yeni qanun layihəsi, həmçinin 2016-2025-ci illər üçün ölkəmizdə turizmin inkişaf strategiyası hazırlanıb. 2002-ci ildən etibarən hər il Bakıda Beynəlxalq Turizm Sərgisinin (AITF) keçirilməsinin ənənə halını alması da turizmin inkişafına göstərilən diqqətin bariz nümunəsidir.

Bakıda, eləcə də regionlarda biznes, istirahət, sağlamlıq, idman turizmini inkişaf etdirmək üçün irimiqyaslı layihələr həyata keçirilib. Ölkə rəhbəri 2016-cı ilin oktyabrından etibarən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün elektron vizaların maksimum üç saat ərzində verilməsinə dair sərəncam imzalayıb. Həmin vaxtdan "ASAN viza" sistemi yaradılıb. Prezident İlham Əliyev Azərbaycanın beynəlxalq hava limanlarında əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə viza verilməsi prosedurunun təkmilləşdirilməsi haqqında fərman imzalayıb.

Respublikamızdakı ictimai-siyasi sabitlik, əmin-amanlıq, yüksəksəviyyəli təhlükəsizlik, infrastruktur və xidmət sektorunun vəziyyətinin yaxşılaşdırılması, Azərbaycanın dünyada tanıdılması yönündə aparılan ardıcıl işlər ölkəmizə turistlərin marağını artırıb.

Prezident İlham Əliyev regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafına dair Dövlət Proqramının icrasının yekunlarına həsr olunan konfransda bildirib ki, Azərbaycanda turizm çox geniş imkanlara malik olmalıdır: "Azərbaycanda təhlükəsizlik, sabitlik hökm sürür, xalqımız çox qonaqpərvərdir. İqlimimiz də çox gözəldir və müxtəlif iqlim tipləri var. Müasir infrastruktur yaradılıb, 6 beynəlxalq aeroport, müasir yollar, dəmir yolları, hotellər, gözəl təbiət, kurortlar, yay-qış xizək, dəniz kurortları, müalicəvi turizm inkişaf edir. Misal üçün, Naftalan indi böyük turizm mərkəzinə çevrilib. Digər müalicəvi yerlərə - Naxçıvanda Duzdağ müalicəvi mərkəzinə turistlər çox gəlir, Qalaaltıya müalicəyə gəlirlər. Tarixi abidələrimiz kifayət qədər çoxdur. Bu da böyük maraq doğurur. Coğrafi vəziyyətimiz də əlverişlidir. Bakı dünyanın ən gözəl şəhərlərindən biridir. Yəni bütün bu amillər deməyə əsas verir ki, turizm sənayesi Azərbaycanda çox sürətlə inkişaf edəcək".

Prezidentin diqqət və qayğısı sayəsində ölkəmizin ən ucqar ərazilərində belə dünya standartları səviyyəsində nəqliyyat şəbəkələri yaradılır. Xüsusilə dağ kəndləri yollarında yaradılan təhlükəsizlik və yolların asfalt örtüyünün müasir tələblərə cavab verməsi turistlərin məmnunluğuna səbəb olur. İndi turistlər həmin ərazidəki kəndlərə səyahət etməkdən xoşlanırlar. Dövlət başçısının tapşırığı ilə turistlərin rahatlığını təmin etmək və onların vaxt itkisinin qarşısını almaq, nəhayət, yol turizminin səmərəliliyini artırmaq məqsədilə bölgələrdə kəndarası yollar əsaslı şəkildə təmir olunur, yol kənarlarına tanıtma nişanları qoyulur, yaşıllıqlar salınır və s.

Cari ildən dünyanın bir çox ölkələrində Azərbaycan diaspor təşkilatlarının və respublika Turizm Bürosunun birgə təşkilatçılığı ilə ölkəmizin turizm potensialı və səmərəliliyinə dair tədbirlər keçirilir, mətbuat konfransları təşkil edilir, nüfuzlu mətbu orqanlarda məqalələr dərc olunur, televiziyalarda süjetlər göstərilir. Bu səbəbdəndir ki, xarici ölkələrdəki turizm şirkətləri ilə əməkdaşlıq sazişləri durmadan artır. Dünyanın turizm ölkələrindən birinə çevrilən Azərbaycana gələn əcnəbi turistlərin say çoxluğu buna bariz nümunədir. Xatırladaq ki, cari ilin əvvəlindən iyul ayına kimi ölkəmizə 187 ölkədən 1 milyon 777,4 min və ya 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 7,4 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlmişdir. Gələnlərin sayında ən çox artım Misir (83,2 faiz), Hindistan (80,6 faiz), Türkmənistan (78,5 faiz), Çin (74,3 faiz), Səudiyyə Ərəbistanı (48,8 faiz), Macarıstan (48,1 faiz), Böyük Britaniya (30,9 faiz), Cənubi Koreya (30,9 faiz), Yaponiya (29,3 faiz), Polşa (27,7 faiz), Kanada (25,2 faiz), Almaniya (25,1 faiz) və Gürcüstan (23,4 faiz) olmuşdur. Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 26,3 faiz artaraq 83,2 min, MDB ölkələrindən gələnlərin sayı isə 6,7 faiz artaraq 655,1 min nəfərə çatmışdır.

*Rəhman SALMANLI,*
*Ağaəli MƏMMƏDOV (foto),*
*"Azərbaycan"*

● Səyahət turizmi

## Ən çox sevilən məkan

**Coğrafi mövqeyinə görə Xaçmazda turizmin hərtərəfli inkişafı üçün ideal şərait var. Yay başlayandan respublikamızın şimal bölgəsində əcnəbi turistlərin ən çox üz tutduqları məkanlardan biri də Xaçmaz rayonudur. Burada istirahət üçün, yəni kənd, çimərlik, sağlamlıq və çadır turizmi formalaşıb.**



Bunların içində səyahət turizmi xüsusi əhəmiyyət kəsb edir. Xaçmaza bəzən muzeylər şəhəri də deyirlər. Qonaqlar ilk əvvəl şəhərdə yerləşən muzeyləri gəzir, görməli yerləri ziyarət edirlər.

Xaçmazda 70-ə yaxın istirahət mərkəzi fəaliyyət göstərir. "Atlant", "Malibu", "Palermo", "Palma", "Rivinin", "Elfaro", "Flaminqo", "UlduzXDMX", "Çobanbulağı", "Xəzər" və "Lotos" təkcə respublikamızda deyil, dünyanın onlarca ölkəsində tanınır. Yay fəsli başlayandan Xaçmazı minlərlə turist ziyarət edib. Əvvəlki illərə nisbətdə bu il turist axını xeyli artıb.

Qonaqların rahatlığı üçün Azərbaycan, rus və ingilis dillərində bukletlər, yol xəritəsi, habelə hər bir istirahət yeri barədə (qiymətlərdən tutmuş endirimlərə qədər) məlumat turistlərə təqdim edilir. Qalır bircə onun seçimi. Baltikyanı ölkələr, Rusiya, Gürcüstan, Qazaxıstan, Fransa, Moldova, Cənubi Koreya, Almaniya kimi ölkələrdən gələnlər çox vaxt istirahət üçün Xaçmazı seçirlər. Onlar "Sağlam və əlil insanların birgə yaşam tərzi" devizi ilə respublikamıza səfərləri çərçivəsində Xaçmazda Heydər Əliyev Mərkəzi, Əziz Əliyev Tarix-diyarşünaslıq və Şəxsiyyətlər muzeyində olmuş, insanlarla söhbət etmiş, milli mətbəximizin təamlarını dadmışlar. Səfər zamanı xaçmazlı əlil ailələrlə görüşlər keçirilmiş, birlikdə sosial məsələlərə dair fikir mübadiləsi aparmışlar.

Xaçmazın memarlıq intellekti genişdir. Şəhərə təşrif buyuran qonaqlar daha çox milli ornamentlərlə zəngin Heydər Əliyev Mərkəzini, respublikamızda ilk olan Şəxsiyyətlər muzeyini ziyarət etməyə üstünlük verirlər. Şəxsiyyətlər muzeyi respublikamızın ictimai və mədəni irsinin göstəricisidir desək, səhv etmərik. Dövlət Turizm Agentliyi Xaçmaz turizm informasiya mərkəzinin direktoru Vasif Əhmədov söhbətində bildirdi ki, son illər rayona gələn turistlər muzeylərimizi ziyarət etməklə yanaşı, onlardan çox şey öyrənirlər. Hətta onların bəzisi geri qayıdan zaman öz ölkələrində belə zəngin ocaqların yaradılması üçün çalışacaqlarını bildirirlər.

Rayonda mehmanxana və obyektlərdə qiymətlər də münasibdir. Bəlkə də ona görədir ki, respublikamızın qonaqları və yerli turistlər çox zaman məhz Xaçmazı seçirlər. Yaraşıqlı küçələr, orta əsrləri xatırladan qüllə, analoqu olmayan samovar, yollarda quraşdırılan qədim lampalar və digərləri turistlərin maraq dünyasıdır. Turist həm də informasiya daşıyıcısıdır. O, qarşılaşdığı qeyri-adilikləri özü ilə fotolarda ölkəsinə aparır. Növbəti ildə o, artıq başqa yeri deyil, məhz Xaçmazı seçir.

Burada turistlərin marağına səbəb həm də balıq ovudur. Onlar Cağacuqçay, Ağçay və Qudyalçayın sahilində saatlarla balıq tutmaqla vaxtlarını mənalı keçirirlər. O səbəbdəndir ki, Gülalan, Nəzər, Qımıl, Sayad göllərinin ətrafı həmişə qonaq-qaralı olur.

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*

● Tədbir

## Bələdçilər üçün təlim keçirilib

**Şəmkir rayonunda Azərbaycan Turizm Bürosunun, Azərbaycan Turizm Bələdçiləri Assosiasiyası və "Regional İnkişaf" İctimai Birliyinin təşəbbüsü və rayon icra hakimiyyətinin təşkilatçılığı ilə "Gəncə-Qazax iqtisadi rayonunda tematik marşrutlar üzrə turizm bələdçilərinin hazırlığı" mövzusunda turizm bələdçiləri üçün təlim keçirilib. Təlimlərdə 30 nəfər iştirak edib.**

İştirakçılar üçün şərabçılıq turizmi, təbiət turizmi, gəzinti və məkan turu kimi praktiki hissə də təşkil olunub və kreativ ideyaların aşılanması məqsədilə tematik marşrutların tərtibatı istiqamətində dərslər keçirilib.

Təlim proqramı çərçivəsində iştirakçılar "Alman irsi mədəniyyət evi"ni ziyarət ediblər.

Təlimdə uğur qazananlara Azərbaycan Turizm Bələdçiləri Assosiasiyasının "Regional turizm bələdçisi" şəhadətnaməsi təqdim edilib.

*Saleh MƏMMƏDOV,*
*Şəmkir rayonu*

● Abidələrimiz

## Açıq səma altında muzey

**Açıq səma altında yerləşən bu bənzərsiz muzeylər 11 ildir Bakının sakinlərini, yaxından-uzaqdan gələn qonaqlarını valeh edir.**





Bura Qala Arxeoloji-Etnoqrafik Muzey Kompleksi adlanır. Heydər Əliyev Fondu tərəfindən Qala Dövlət Tarix-Etnoqrafiya Qoruğunun ərazisindəki abidələrin mühafizə olunması, Abşeronda aşkar edilən arxeoloji tapıntılar hesabına qoruğun zənginləşdirilməsi məqsədilə yaradılıb.

2011-ci ildə isə kompleksin ərazisində Qala İnformasiya Mərkəzi, Etno-Ekoloji Mərkəz, Əntiq Əşyalar Muzeyi yaradılıb.

Qala Arxeoloji-Etnoqrafik Muzey Kompleksi çoxsaylı qonaqları olan bir məkandır. Buraya Azərbaycanın müxtəlif bölgələrindən, Bakıdan və ətraf qəsəbələrdən dəstə-dəstə insanlar, eləcə də xarici turistlər gəlir.

Kompleksin ərazisində məktəbliləri də tez-tez görmək olur. Onlar buradakı muzeylərə maraqla tamaşa edirlər. Belə səfərlər şagirdlər üçün əyani tarix dərsinə çevrilir.

*"Azərbaycan",*
*foto Fərman BAĞIROVUNDUR*

● Gəzməli, görməli yerlərimiz

## Qədim Nizami yurduna maraq ildən-ilə artır

**Son illər yerli və xarici turistlərin Azərbaycanın ikinci böyük şəhəri olan Gəncəyə maraqları daha da artmışdır. Bunun bir səbəbi qədim Nizami yurdunda aparılan abadlıq və quruculuq işləri nəticəsində şəhərin gözəlləşməsidirsə, digər səbəbi burada çoxlu sayda mədəniyyət obyektlərinin olmasıdır.**





Gəncə həm də muzeylər, tarixi abidələr, parklar , fəvvarələr şəhəridir. Hazırda burada 31 böyük park var. Onlardan ən nəhəngi Ulu Öndər Heydər Əliyevin adını daşıyan park-kompleksidir. İstər şəhər sakinlərinin, istərsə də turistlərin bu parkda mənalı istirahəti üçün hər cür şərait yaradılmışdır.

450 hektar ərazisi olan Heydər Əliyev park-kompleksinin girişində möhtəşəm "Zəfər tağı" ucaldılıb. Gözoxşayan xiyabanda geniş yaşıllaşdırma işləri aparılmış, çoxlu sayda oturacaqlar qoyulmuşdur. İnsanlar axşamlar xiyaban boyu gəzintilər keçirir, fəvvarələrin ətrafında dayanıb sərinlənirlər. "Zəfər tağı"ndan Heydər Əliyev mərkəzinə kimi olan ərazidə minlərlə ağac əkilib. Parkda yaradılan süni göl və orijinal şəlalə bu əraziyə xüsusi gözəllik verir. Bundan başqa, park-kompleksdə müxtəlif məişət obyektləri, əyləncə mərkəzləri, istirahət guşələri və uşaqlar üçün nağıl qəhrəmanlarını canlandıran "Disneyland" əyləncə mərkəzi də fəaliyyət göstərir. Parkda Müasir İncəsənət Muzeyi və amfiteatr da inşa edilmişdir. Muzeydə tez-tez tanınmış rəssamların əl işlərindən ibarət sərgilər təşkil edilir ki, bu da turistlərin marağına səbəb olur. Nəhayət, burada ucaldılan möhtəşəm Heydər Əliyev Mərkəzi park-kompleksinə xüsusi yaraşıq verir. Demək olar ki, mərkəz hər gün insanlarla dolu olur. Xüsusilə məktəblilər burada dahi şəxsiyyət Heydər Əliyevin həyat və siyasi fəaliyyətini, eləcə də müstəqil Azərbaycanın memarı və qurucusunun göstərdiyi xilaskarlıq missiyasını dərindən öyrənirlər.

Gəncənin park-bulvar kompleksi də insanların ən çox sevdikləri məkandır. Layihəyə uyğun olaraq görülən işlər çərçivəsində Gəncə çayının şəhər ərazisindən keçən hissəsində sahilbərkitmə işləri aparılmış, çayın yatağı təmizlənmiş, məcrası isə yenidən qurularaq hər iki tərəfdə ümumi uzunluğu 2,4 kilometr olan betondan istinad divarı çəkilmişdir. Çayın sağ sahilində ilkin olaraq 34 hektar ərazidə bulvar salınmışdır. İstirahət məkanında Bayraq meydanı, mətbuat evi, kitab evi, uşaq əyləncə və ticarət mərkəzləri, "Əli və Nino" kompleksi, saat qülləsi, kinoteatr inşa edilmişdir. Bulvarda velosipedçilər üçün xüsusi veloxəttin salınması şəhər gəncləri, eləcə də turistlər tərəfindən razılıqla qarşılanmışdır. İndi axşamlar burada insan əlindən tərpənmək olmur. Attraksionlar, yaşlı insanların dincəlməsi üçün guşələr, müxtəlif stolüstü oyunların keçirilməsi üçün yerlər də yaradılmışdır.

Yay mövsümü olduğundan Gəncə sakinlərinin ən çox üz tutduqları yerlər park və xiyabanlardır. Onlardan biri də görkəmli dövlət xadimi Nəriman Nərimanovun adını daşıyan parkdır. Parkın girişində onun böyük büstü ucaldılmışdır. Yaşıllıqlarla əhatə olunmuş parkda çoxlu oturacaqlar qoyulmuş, müasir işıqlandırma qurğuları quraşdırılmışdır ki, bu da gecələr parka xüsusi gözəllik verir.

Ümumiyyətlə, şəhərin bütün yaşayış massivlərində park və xiyabanlar salınmışdır ki, bunun da nəticəsində bu ərazilərdə yaşayan insanlar əziyyət çəkib istirahət etmək üçün uzun yol qət etmirlər. Məsələn, görkəmli Azərbaycan bəstəkarı Fikrət Əmirovun və Məhəmməd Füzulinin, görkəmli dövlət xadimi Əziz Əliyevin adını daşıyan parklar, eləcə də "İstiqlal" parkı şəhərin müxtəlif ərazilərində salınmışdır ki, bu da sakinlərin istirahəti üçün çox əlverişlidir.

Hazırda şəhərdə iki yeni parkın salınması uğurla davam etdirilir. Onlardan biri Mirzə Şəfi Vazeh parkıdır ki, burada da işlər yekunlaşmaq üzrədir. Ümumi sahəsi bir hektardan çox olan parkda 10 ədəd bulaq kompleksi tikilmiş, insanların istirahəti üçün hər cür şərait yaradılmışdır.

Şəhərdə yeni parklar salınarkən Gəncə memarlığına xas olan tağbəndlərdən, ətraf hasarlarda isə gülbağı daşlardan, eləcə də kərpiclərdən istifadə olunur ki, bu da şəhərin qədimliyinə xələl gəlmədən müasirliyini əks etdirir.

Gəncə həm də turistləri özünə daha çox cəlb edən muzeylər şəhəridir. Aparılan genişmiqyaslı tikinti-quruculuq işləri yeni muzeylərin yaradılması ilə də müşayiət olunur. Yerli memarlıq üslubunda ucaldılan bu muzeylər çox qısa zamanda həm Gəncə sakinlərinin, həm də xarici qonaqların böyük marağına səbəb olmuşdur. Qədim mülklərlə yanaşı, indi burada Qala Qapıları-Arxeologiya və Etnoqrafiya Muzeyi Abidə Kompleksi kimi yeni tikililər də var. Şəhərin girəcəyində ucaldılmış bu abidə indi hər bir qonaqda heyranlıq yaradır.

Dahi Azərbaycan şairi Nizami Gəncəvinin məqbərəsi yaxınlığında bənzərsizliyi ilə diqqəti cəlb edən bir muzey də inşa edilmişdir. Bu, Nizami Gəncəvi Muzeyi adlanır. Muzeyin Nizami Gəncəvi məqbərəsinin yaxınlığında tikilməsi bura gələnlərə həm məqbərəni ziyarət etməyə, həm də dahi şairin həyat və yaradıcılığı barədə geniş məlumat almağa imkan yaradır. Bunun üçün muzeydə böyük monitor da quraşdırılmışdır.

Ümumiyyətlə, Gəncədə son bir neçə ildə mədəniyyət obyektlərində əsaslı şəkildə yenidənqurma işləri aparılmışdır. Məsələn, Nizami Gəncəvinin məqbərəsində, Gəncə çayı sahilində yerləşən "Xəmsə" memarlıq kompleksində, "Çökək hamam" tarixi memarlıq abidəsində, "Zərrabi" tarix-memarlıq abidəsində, "Şərəfxanlı" tarix-memarlıq abidəsində əsaslı təmir işləri görülmüş, Məhsəti Gəncəvi Mərkəzi, Miniatür kitab muzeyi, "Avropa Gənclər Paytaxtı-2016 Gəncə Parkı", Hacıkənd qəsəbəsində "Nizami Gəncəvinin sələfləri və xələfləri" adlı park, Şah Abbas və Uğurlu xan karvasarayları təmirdən sonra istifadəyə verilmişdir.

Söz yox ki, şəhərdə turistlər üçün yaradılan bu imkanlar onu deməyə əsas verir ki, istər yerli və istərsə də xarici qonaqlar bu qədim şəhərə gəlməyə böyük maraq göstərirlər. Onlar bu səfərləri çərçivəsində Gəncənin tarixini öyrənməklə yanaşı, onun müasirliyinin də şahidi olurlar. Bundan başqa, turistlərin qədim Nizami yurduna marağını artıran amillərdın biri də göllər tacı Göygölun bu şəhərə yaxın ərazidə yerləşməsidir. Son illər göl ərazisində aparılan abadlıq və quruculuq işləri insanların razılığı ilə qarşılanmışdır. İndi gölə ekskursiya edən yerli turstlərlə yanaşı, xarici turistlər də çoxluq təşkil edir. Hətta ailəvi şəkildə bura gələn turistlərin də sayı gündən-günə artır.

Hindistanlı Əmriş Kumor deyir ki, onların ölkəsində də gəzməli, görməli yerlər çoxdur. Lakin dağların qoynunda yerləşən bu göl onu heyran etdi. Meşələr, yan-yana düzülmüş göllər isə bu ərazilərə xüsusi yaraşıq verir. Mən buranın təbiətindən çox zövq aldım. Növbəti illərdə ailəmlə bu yerlərə təkrar dönmək arzusundayam.

İsrailli turist Adlin Key isə söylədi ki, o, bir çox xarici ölkədə olub. Lakin belə bir gözəllik görməyib.

Gəncədə turizmin inkişafı üçün geniş imkanlar var. Xüsusilə şəhərə gəlmək üçün heç bir nəqliyyat problemi yaşanmır. Əvvəla, burada beynəlxalq hava limanı var və sərbəst uçuşlar həyata keçirilir. Paytaxt Bakıdan Gəncəyə sürət qatarı işləyir. Bakı-Gəncə magistral avtomobil yolu tamamilə yenidən qurulmuşdur.

Ümumiyyətlə, Azərbaycan müstəqillik qazandıqdan sonra turizmin inkişafı sahəsində görünməmiş uğurlar qazanılıb. Prezident İlham Əliyevin bu sahənin inkişafı ilə bağlı imzaladığı sərəncamlara uyğun olaraq görülən işlər onu deməyə imkan verir ki, yaxın zamanlarda Azərbaycan dünyanın ən qabaqcıl turizm ölkələrindən birinə çevriləcək. Bu öncüllükdə sözsüz ki, Gəncə şəhəri nümunəvilik nümayiş etdirəcək. Bunun üçün isə Gəncədə həm əlverişli coğrafi, həm də füsunkar iqlim şəraiti var.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

# Azərbaycanın hərbi orkestri ilk dəfə “Spasskaya Başnya” XII Beynəlxalq hərbi musiqi festivalında təmsil olunur





Azərbaycan Ordusu Moskvada keçirilən “Spasskaya Başnya” XII Beynəlxalq hərbi musiqi festivalında ilk dəfə təmsil olunur.

AZƏRTAC xəbər verir ki, avqustun 23-də Moskvadakı Qırmızı meydanda başlayan “Spasskaya Başnya” festivalında Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin hərbi orkestri də iştirak edir. Sentyabrın 1-dək davam edəcək festivala yaradıcı heyət polkovnik Etibar Əliyevin rəhbərliyi ilə qatılıb.

Tərkibi hər il dəyişilən və dünyanın ən böyük musiqi festivallarından olan “Spasskaya Başnya” beynəlxalq hərbi musiqi festivalında bu il də izləyicilər maraqlı kollektivlərin çıxışlarını izləyə biləcəklər.

Xatırladaq ki, 1992-ci ilin fevralından fəaliyyət göstərən Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin hərbi orkestri Müdafiə Nazirliyinin əsas orkestrlərindən biri sayılır. Orkestrin hərbi dirijoru mayor Fariz Məmmədzadədir.

Festivalın qaydalarına uyğun olaraq yarışda orkestrlə birlikdə Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin Mahnı və Rəqs Ansamblı da çıxış edir. Festival zamanı hər komandaya altı dəqiqə vaxt veriləcək. Bu vaxt ərzində orkestrlər təmsil etdikləri ölkənin və digər dünya xalqlarının mahnı və marşlarını ifa edirlər. Heyətimiz festivalda Müslüm Maqomayevin “Radio marşı”, “Odlar yurdu Azərbaycan”, Əlimərdan Əliyevin “Bayramlı Azərbaycan”, Üzeyir Hacıbəylinin “Cəngi” musiqilərini ifa edəcək. Həmçinin orkestrin şəhər sakinləri və qonaqlar üçün də bir neçə konsert proqramı təşkil etməsi planlaşdırılır.

Şəhərin mərkəzi meydanlarında baş tutacaq həmin konsertlərdə Fikrət Əmirov, Qara Qarayev, Polad Bülbüloğlu, Tofiq Quliyev, Rauf Hacıyev, digər yerli və dünya klassiklərinin əsərləri təqdim ediləcək.

# Sumqayıtda gənclər arasında boulinq turniri keçirildi

Sumqayıtın 70 illik yubileyi ərəfəsində şəhərdə müxtəlif tədbirlər keçirilir. Elə bir təşkilat yoxdur ki, bu bayrama öz töhfəsini verməsin. Şəhər Gənclər və İdman Baş İdarəsi bayram gününədək tədbirlər proqramı hazırlayıb həyata keçirir. Sumqayıt Bulvarında gənclər arasında idmanın boulinq növü üzrə turnir təşkil edilmişdir.









Tədbirin açılış mərasimində bildirildi ki, sumqayıtlı gənclər bütün sahələrdə nümunə göstərir, bacarıq və istedadlarını nümayiş etdirirlər. Şəhər miqyasında elə bir tədbir olmur ki, orada gənclər iştirak etməsinlər. İdman kompleksləri, zallar, meydançalar onların ixtiyarına verilmişdir. Gənclər bir çox hallarda təşəbbüslə çıxış edərək yarışlar təşkil edirlər. Qeyd edildi ki, boulinq turniri də onların sərbəst şəkildə müraciəti əsasında keçirilir.

Daha sonra start götürən mübarizəyə ümumilikdə 8 komanda və hər komandadan 7 nəfər olmaqla 56 gənc qatıldı. Yarışda 1-ci yeri Sumqayıt “ASAN xidmət” mərkəzinin, 2-ci yeri Azərbaycan Qızıl Aypara Cəmiyyəti Sumqayıt bölməsinin, 3-cü yeri isə Gənclər Evinin komandaları tutdu. Qaliblər Gənclər və İdman Baş İdarəsinin kubok, medal, fəxri fərman və hədiyyələri ilə təltif edildilər.

***A.ƏLİYEV,***
***“Azərbaycan”***

## Beynəlxalq aləm

### KXDR yeni raket buraxılışı həyata keçirdi

KXDR Yapon dənizi istiqamətində iki yeni raket buraxmışdır. Cənubi Koreya Silahlı Qüvvələrinin Qərargah Rəisləri Komitəsi məlumat vermişdir ki, raketlər şimal-şərqdəki Hamgön-Pukto vilayətindən buraxılmışdır.



Raketlərin növü məlum deyil. Bununla belə, Cənubi Koreya ehtimal edir ki, KXDR yaxınmənzilli ballistik raketlər buraxmışdır. Raketlər 97 kilometr hündürlükdə təxminən 380 kilometr uçmuşdur.

Hadisə ilə əlaqədar Cənubi Koreya Prezidentinin administrasiyası Milli Təhlükəsizlik Şurasının iclasını çağırmışdır. İclasın yekunlarına görə, Milli Təhlükəsizlik Şurası Pxenyandan Koreya yarımadasında gərginliyi artıran raket buraxılışlarını dayandırmağı tələb etmişdir.

Bu, son bir ay ərzində KXDR-də yeddinci raket buraxılışıdır. Raket sınağı ABŞ və Cənubi Koreya birgə hərbi təlimləri başa çatdıqdan az sonra həyata keçirilmişdir.

### Tramp Çin mallarına əlavə rüsumlar tətbiq edəcək



Pekinin ABŞ mallarına əlavə rüsumlar tətbiq etməsinə cavab olaraq ABŞ Prezidenti Donald Tramp Çin mallarına cəza rüsumları tətbiq olunacağını bəyan etmişdir. Bu barədə “Assoşieyted Press” agentliyi xəbər verir.

Tramp srağagün Twitterdəki səhifəsində yazmışdır: “Çin 75 milyard dollarlıq ABŞ mallarına yeni rüsumlar qoymamalı idi. Oktyabrın 1-dən etibarən Çinin 250 milyard dollarlıq mallarına və xidmətlərinə 25 faizlik yox, 30 faizlik vergi tətbiq olunacaq”. Bundan başqa, Çindən idxal olunmuş 300 milyard dollarlıq mallara, planlaşdırdığı kimi, 10 faizlik yox, 15 faizlik gömrük tarifi tətbiq olunacaq.

Həmin gün bir qədər əvvəl Çin Ticarət Nazirliyi ABŞ mallarına əlavə rüsumlar tətbiq olunacağını bildirmişdi. ÇXR hər il ABŞ-ın 5 min çeşiddə mallarına 5 faizdən 10 faizədək yeni rüsumlar tətbiq etməyi planlaşdırır. Yeni rüsumların tətbiqi iki mərhələdə - sentyabrın 1-dən və dekabrın 15-dən etibarən həyata keçiriləcək.

### Türkiyə İraqın şimalında yeni antiterror əməliyyatına başladı



Türkiyə İraqın şimalında, Sinat-Haftanin rayonunda “Pəncə-3” şərti adı altında yeni antiterror əmıliyyatına başlamışdır. Bu barədə Türkiyə Milli Müdafiə Nazirliyi məlumat vermişdir. Əməliyyatın məqsədi sərhədin təhlükəsizliyini təmin etmək, terrorçuları və onların sığınacaqlarını məhv etməkdir. Terrorçularla mübarizəyə Türkiyə hərbi hava qüvvələrinin təyyarələri, pilotsuz hava aparatları və “Fırtına” qaubitsaları cəlb olunmuşdur.

“Pəncə-1” əməliyyatı mayın 27-də İraqın Hakurk rayonunda başlamışdı. İyulda əməliyyatın miqyası genişlənmiş və o, “Pəncə-2” adı almışdı.

### ABŞ Qrenlandiyaya qayıtmağı planlaşdırır

ABŞ Danimarkanın Qrenlandiya adasında yenidən konsulluq açmağı planlaşdırır. Bu barədə Dövlət Departamentinin Senatın xarici işlər komitəsinə göndərdiyi məktuba istinadən “Assoşieyted Press” agentliyi xəbər verir.



Sənəddə qeyd olunur ki, Qrenlandiyada konsulluğun bərpa olunması ABŞ-ın Arktikada mövcudluğunu genişləndirmək planının bir hissəsidir. Xarici siyasət idarəsi “Arktika regionunda siyasi, iqtisadi və ticarət münasibətlərinin möhkəmlənməsində strateji marağı” vurğulayır. Dövlət Departamenti əlavə etmişdir ki, konsulluq “ABŞ-ın Arktikada mövcudluğunu genişlətmək naminə səylərimizin son dərəcə mühüm komponenti olacaq və ABŞ-ın Qrenlandiyada maraqlarını irəli aparmaq üçün effektiv platforma rolu oynayacaq”.

ABŞ-ın Qrenlandiyada konsulluğu 1940-cı ildə nasistlər Danimarkanı işğal etməyə başlayandan sonra açılmışdı. Diplomatik missiya 1953-cü ildə bağlanmışdı. Gözlənildiyinə görə, yeni konsulluq gələn il açılacaq və orada yeddi nəfər işləyəcək.

# Bakı 2022-ci ildə akrobatika gimnastikası üzrə dünya çempionatına evsahibliyi edəcək

Beynəlxalq Gimnastika Federasiyanın (FIG) İcraiyyə Komitəsinin Nikaraquanın Manaqua şəhərində keçirilən iclasında qəbul edilmiş qərara əsasən 2022-ci ildə akrobatika gimnastikası üzrə dünya çempionatının təşkili Azərbaycan Gimnastika Federasiyasına (AGF) həvalə olunub.

AGF-dən AZƏRTAC-a bildiriblər ki, martın 11-13-də Milli Gimnastika Arenasında təşkil olunacaq çempionatdan əvvəl isə martın 2-7-də Dünya Yaş Qrupu yarışları da Bakıda keçiriləcək.

Ardıcıl bir neçə ildir mötəbər beynəlxalq yarışları yüksək səviyyədə təşkil edən AGF-ni qarşıda digər mühüm çempionatlar da gözləyir. Belə ki, bu ilin əsas yarışı - sentyabrın 16-22-də Milli Gimnastika Arenasında keçiriləcək bədii gimnastika üzrə dünya çempionatının başlamasına artıq bir aydan da az vaxt qalıb. Növbəti il isə aerobika ulduzları dünya çempionatında yarışmaq üçün paytaxtımızda toplaşacaqlar. 2021-ci ildə isə Bakı batut gimnastikası üzrə dünya birinciliyinə evsahibliyi edəcək.

# Gənc kursantların ali hərbi məktəbə qəbul olmaları münasibətilə tədbir keçirilib

**Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində gənc kursantların qəbulu münasibətilə Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə tədbir keçirilib.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və torpaqlarımızın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycanın Dövlət Himni ifa olunub.

Tədbirdə çıxış edənlər gənc kursantlara vətənə, dövlətə və Ali Baş Komandana, hərbi anda sadiq olmalarını, nümunəvi, nizam-intizamlı xidmət etməyi, silah və texnikanın sirlərini dərindən öyrənərək döyüş qabiliyyətlərini daim artırmalarını, komandir-rəis heyətinin əmr və sərəncamlarını dəqiq və vaxtında yerinə yetirmələrini, işğal olunmuş torpaqlarımızın azadlığı uğrunda döyüşə hər an hazır olmalarını tövsiyə ediblər.

Çıxışlardan sonra Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin incəsənət nümayəndələrinin rəngarəng konsert proqramı maraqla izlənilib.

# Vətəndaşların qəbulu keçirilib

Avqustun 23-də Vergilər nazirinin birinci müavini Sahir Məmmədxanov Naftalan şəhərində yerləşən Vergi ödəyicilərinə xidmət mərkəzində vətəndaşları qəbul edib.

Vergilər Nazirliyinin Media və kommunikasiya mərkəzindən AZƏRTAC-a bildirilib ki, qəbulda Goranboy, Göygöl, Samux, Daşkəsən, Kəlbəcər rayonları, habelə Gəncə və Naftalan şəhərlərindən olan sakinlər iştirak ediblər.

Qəbula gələn vətəndaşlar əsasən vergi qanunvericiliyi və inzibatçılığının tətbiqi, vergilərin hesablanması və ödənilməsi, vergi nəzarəti tədbirlərinin nəticələri, uçot, vergi orqanlarında işlə təminat və digər məsələlərlə bağlı müraciət ediblər.

Vətəndaşların müraciətləri dinlənilib, bəziləri yerindəcə həll olunub, digər məsələlər barədə nazirliyin struktur bölmələrinə müvafiq tapşırıqlar verilib.

# Atəşkəs rejimi 19 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində, snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 19 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın İcevan rayonunun Paravakar kəndində yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq kəndində və Qazax rayonu ərazisindəki adsız yüksəkliklərdə, Berd rayonunun Ayqedzor kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Muncuqlu kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Acarlı, Novruzlu, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qorqan kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

# N.Paşinyan iqtidarına qarşı etirazlar səngimək bilmir

Əvvəli 1-ci səh.

Yerevanda da etiraz aksiyaları davam etməkdədir. Paşinyan iqtidarına etiraz edənlər Ermənistanda fəaliyyət göstərən diplomatik nümayəndəliklərin qarşısında aksiya keçirməyə başlayıblar. Etirazçılar Almaniya, Fransa və İtaliya səfirliklərinin qarşısında aksiya keçiriblər. Aksiya iştirakçıları bildiriblər ki, əhali artıq Paşinyana və komandasına inanmır, çünki onlar xalqa verdikləri vədə əməl etmədilər. Qeyd edilib ki, Ermənistan hazırda ən ağır günlərini yaşayır. Ölkədə məmur özbaşınalığı, rüşvətxorluq və işsizlik tüğyan edir. Orduda komandirlərə qarşı işgəncə halları artıb. Vətəndaşlar məhkəmə sistemindən və polis zorakılığından cana gəliblər. Sakinlər qeyd ediblər ki, Avropa ölkələri Paşinyanın seçiciləri ilə necə davrandığının şahidi olsunlar. Bu səbəbdən Ermənistanda yeni baş nazirə ehtiyac var.

Ölkəni bürüyən etirazlar onu göstərir ki, Ermənistanda məlum hakimiyyət dəyişikliyindən sonra hansısa inkişafın olacağına dair ümidlər artıq tam tükənib. Ölkədə əvvəlki kimi aclıq, səfalət, yoxsulluq hökm sürür. Digər tərəfdən, yeni hakimiyyətin yanlış siyasəti Ermənistanın təcridinin daha da dərinləşməsinə rəvac verir. Bütün bunların fonunda müşahidə olunan əsas məqam Ermənistan daxilində ziddiyyətlərin dərinləşməsidir.

Sosial-iqtisadi müstəvidə böyük tənəzzül yaşayan Ermənistanda xarici siyasət sferasında da böhran müşahidə olunur. Azərbaycanın uğurla həyata keçirdiyi xarici siyasət Ermənistanı dalana direyir. Əldə etdiyi nailiyyətlərdən məharətlə istifadə edən Azərbaycan bu gün işğalçı Ermənistana həm diplomatiya müstəvisində böyük zərbələr vurur, həm də bu ölkəni təcrid vəziyyətinə salmaqla onun sosial-iqtisadi çöküşünü sürətləndirir. Aydındır ki, Ermənistan işğal siyasətinə son qoymayana qədər bu vəziyyətdə qalmağa, daha böyük problemlərlə üzləşməyə davam edəcək.

Ermənistanın “Qolos Armenii” saytı yazır ki, ölkədə populizm asan bir yol olduğu halda başqa bir yol axtarmağa nə ehtiyac var? Xalqı aldatmaq üçün ibtidai mexanizm işləyəndə niyə başqa yollar axtarılmalıdır? Bu cür düşüncə növü Ermənistanda son zamanlar üstünlük təşkil etməkdədir. Saytın yazdığına görə, cəmiyyət artıq Paşinyan hökumətinin səriştəsizliyindən, onların parlamentdəki çoxluğundan bezib.

Erməni xalqı hərəkət və hərəkətsizliyi ilə dövlətin təhlükəsizliyini təhdid etdiyini belə anlamayan Nikol komandasının cəhalətindən bezib: “Bu gün biz Ermənistanda ağır proseslərin aktiv mərhələsinin şahidi oluruq. Belə görünür ki, artıq Nikolun “küməsi” yatmaqdadır. Payız aylarına kimi Paşinyanın ətrafının onu tərk edəcəyinə heç bir şübhə yeri yoxdur. Çünki bu gün baş nazirin rəhbərlik etdiyi “Vətəndaş müqaviləsi” partiyasına qoşulmaq üçün müraciətlərin sayı kəskin şəkildə azalıb. Nikol Paşinyanın müvəqqəti fiqur olduğunu təkcə yerli ermənilər deyil, həm də Ermənistanın hüdudlarından kənarda da başa düşməyə başlayıblar”.

Beləliklə, digər sahələrdə də genişlənən aksiyalar Ermənistanda vəziyyəti daha da ağırlaşdırır. Bütün bunlar qarşıda işğalçı ölkəni həqiqətən çətin bir dövr gözlədiyini tam təsdiq edir.

***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***

# Araz çayının Qıvraq məntəqəsində suyun səviyyəsi 4 santimetr azalıb

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentinin verdiyi məlumata görə, hazırda Böyük Qafqazın Quba-Xaçmaz bölgəsindən axan Vəlvələçayda sululuq ongünlük normadan çox olmaqla normanın 130, Kiçik Qafqazın ərazisindən axan Kürəkçay və Zəyəmçayda sululuq ongünlük normadan az və norma daxilində olmaqla 30-100, Lənkəran-Astara bölgəsindən axan Lənkərançay, Vəşərüçay və Viləşçayda isə sululuq ongünlük normadan az olmaqla normanın 40-60 faizini təşkil edir.

Departamentdən AZƏRTAC-a bildiriblər ki, Kür çayının Qıraqkəsəmən məntəqəsində suyun səviyyəsində 3 santimetr artım müşahidə olunub. Hazırda məntəqədə su sərfi saniyədə 108 kubmetrə bərabərdir. Bu da ongünlük normaya yaxın olmaqla onun 89 faizini təşkil edir.

Qanıx çayının Əyriçay məntəqəsində suyun səviyyəsində dəyişiklik qeydə alınmayıb. Hazırda məntəqədə su sərfi saniyədə 15 kubmetr təşkil edir ki, bu da ongünlük normadan az olmaqla onun 22 faizinə bərabərdir.

Araz çayının Qıvraq məntəqəsində suyun səviyyəsi 4 santimetr azalıb. Hazırda məntəqədə su sərfi saniyədə 28 kubmetr təşkil edir. Bu da ongünlük normadan az olmaqla onun 58 faizinə bərabərdir.

Kür çayının aşağı axınında suyun səviyyəsi artıb. Belə ki, Kür çayının Surra məntəqəsində suyun səviyyəsi 2 santimetr artaraq 323 santimetr təşkil edib. Şirvan məntəqəsində suyun səviyyəsi 2 santimetr artaraq 53 santimetr olub. Salyanda suyun səviyyəsi 1 santimetr artıb və 73 santimetrə bərabər olub. Bankə məntəqəsində suyun səviyyəsi 1 santimetr artaraq 152 santimetr təşkil edib. Araz çayının Novruzlu məntəqəsində isə suyun səviyyəsi 2 santimetr artaraq 25 santimetr olub.

«AZƏRBAYCAN»
qəzetinin reklam xidməti

**ALLAH RƏHMƏT ELƏSİN!**

Azərbaycan Respublikasının Mərkəzi Bankının sədr müavini Aftandil Babayev Abbas Qaracayevə atası

**Zeynal Qaracayevin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Dövlət İqtisad Universitetinin kollektivi Fizika və kimya kafedrasının müdiri, professor Rövnəq Rzayevə atası

**MİRZƏ RZAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri,
Mətbuat prospekti,
529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 9004
Sifariş 2739
Qiymәti 40 qəpik